Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 58 (7785) CÜMƏ AXŞAMI, 15 mart 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiymətı 40 qəpik



# VI Qlobal Bakı Forumu

## Dünya yenidən Bakıda toplaşır



### *Azərbaycan qlobal dialoqun ən mükəmməl platforması olduğunu bu gün növbəti dəfə təsdiqləyir*

**Azərbaycan tarixi, geostrateji mövqeyi, ənənələri və dinamik inkişafı ilə qlobal arenaya mühüm töhfələr verməkdədir. Bunu müxtəlif amillərlə yanaşı, respublikamızın artıq neçə illərdir ki, mühüm beynəlxalq tədbirlərə uğurla evsahibliyi etməsi də təsdiqləyir.**

Dünya humanitar forumu, sivilizasiyalararası dialoq forumu, müxtəlif idman yarışları və digər qlobal əhəmiyyətli tədbirlər Bakını beynəlxalq əməkdaşlığın əsas mərkəzlərindən birinə çevirib.

Belə mövzulu forumların keçirilməsi üçün Azərbaycanın seçilməsi təsadüfi deyil. Çünki qədim və zəngin mədəniyyətə malik, müxtəlif ənənələrin, sivilizasiya və konfessiyaların əsrlər boyu dinc yanaşı mövcud olduğu Azərbaycan bu formatda tədbirlərin keçirilməsi üçün həqiqətən də nümunəvi məkandır. Digər tərəfdən, xalqımızın qədim tarixi, zəngin mədəniyyəti, tolerantlığı barədə vaxtilə yetərincə məlumatı olmayan dünya dinamik inkişafın nəticəsi olaraq Azərbaycanı ildən-ilə daha yaxından tanıyır və onun artan nüfuzunun şahidinə çevrilir. Elə bu amillər də Azərbaycanın sivilizasiyalararası və mədəniyyətlərarası dialoqa mühüm töhfə verən ölkə statusunu daha da möhkəmləndirir və bu mövzuda dünyanı düşündürən məsələlərin müzakirə edildiyi beynəlxalq tədbirlərin məhz ölkəmizdə keçirilməsini şərtləndirir.

Azərbaycanın son illərdə uğurla evsahibliyi etdiyi beynəlxalq tədbirlərdən biri də Qlobal Bakı Forumudur. İndiyədək 5 forum keçirilib. İlk dəfə 2013-cü ildə keçirilən forumda qadın məsələləri, dinlərarası, mədəniyyətlərarası dialoq, regionda gedən proseslər, Dağlıq Qarabağ münaqişəsi və bölgədəki digər münaqişə ocaqları ilə bağlı vəziyyət müzakirə olunub. İki gün davam edən foruma dünyanın 40-dan çox ölkəsindən 200-ə yaxın tanınmış ictimai-siyasi xadim qatılmışdı.

2014-cü ilin aprelində keçirilən ikinci forumda 57 ölkədən 200-ə yaxın tanınmış ictimai və siyasi xadim, o cümlədən 32 ölkənin sabiq dövlət və hökumət başçısı iştirak etdi. Tədbirin gündəliyinə isə açıq cəmiyyətlərin əhatə dairəsi və əsasları, iqtisadi dayaqları, mürəkkəb situasiyalarda münaqişələrin həlli üsulu, davamlı inkişaf prosesinin təmin edilməsi üçün multiidarəetmə və institusional çərçivəyə olan ehtiyac və digər mühüm məsələlərin müzakirəsi daxil idi. Həmçinin daxili iqtisadi artım siyasəti ilə əməli iş, yüksək keyfiyyətli təhsil və digər sosial xidmətlər üçün bərabər imkanların yaradılması, qadınların cəmiyyətdə rolunun gücləndirilməsi kimi məsələlərə də müzakirələr zamanı xüsusi diqqət ayrıldı.

Üçüncü forum 2015-ci ilin aprelində keçirildi və dünyanın 60-dan çox ölkəsindən ümumilikdə 200-dən artıq nümayəndə, 55 ölkədən sabiq hökumət rəhbərləri, tanınmış ictimai və siyasi xadimlər, həmçinin bir neçə ölkənin hazırkı dövlət və hökumət başçıları da iştirak etdi. “Yeni dünya düzənində etimadın bərpa olunması” mövzusuna həsr olunan III forumda nüfuzlu siyasi liderlər dünyanı narahat edən məsələlər - etnik və digər zəmində baş verən münaqişələr, terror təhdidləri, demokratiyanın inkişafı, təhsil, ekologiya, enerji təhlükəsizliyi, dinlərarası dialoq, sülhün qorunmasında qadınların rolu və bir sıra qlobal problemləri müzakirə etdilər.

IV Qlobal Bakı Forumu 2016-cı ilin martında keçirildi. Forumda Albaniya, Monteneqro, Bolqarıstan, Makedoniya, Bosniya və Herseqovina və Gürcüstan prezidentləri ilə yanaşı, 27 sabiq prezident və 23 sabiq baş nazir də daxil olmaqla 53 ölkədən 300-dən çox nümayəndə iştirak etdi. “Çoxqütblü dünyaya doğru” mövzusuna həsr edilən forumda münaqişələrin qarşısının alınmasında dinlərarası dialoqun rolu, miqrasiya, multikulturalizm və inteqrasiya məsələləri, o cümlədən qlobal təhlükəsizliyin təmin olunmasında radikallaşma və miqrasiya amillərinin rolu kimi mühüm məsələlər müzakirə olundu. Bundan başqa, enerji və qlobal idarəçiliyin gələcək perspektivləri ilə bağlı məsələlər də forumun gündəliyinə daxil idi.

Ötən ilin mart ayının 16-17-də keçirilən V Qlobal Bakı Forumu “Beynəlxalq münasibətlərin gələcəyi: güc və maraqlar” mövzusuna həsr olunmuşdu. Forumda 56 ölkədən 300 nəfərədək nümayəndə, o cümlədən müasir dünya siyasətinin yönləndirilməsində, bir çox regional proseslərin qiymətləndirilməsində mühüm rolu olan çox nüfuzlu dövlət xadimləri, siyasətçilər, elm adamları, siyasi ekspertlər iştirak etdi.

*Ardı 3-cü səh.*

## Türkiyə-Azərbaycan dostluq, qardaşlıq münasibətləri uğurla inkişafdadır





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırım ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Baş nazir Binəli Yıldırımı qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyənin Baş naziri Binəli Yıldırım ilə görüşü oldu.

**Prezident İlham ƏLİYEV dedi:**

- Hörmətli cənab Baş nazir, mən sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz. Biz sizin səfərinizə böyük önəm veririk. Əminəm ki, səfər çox uğurlu olacaq və Türkiyə-Azərbaycan dostluq, qardaşlıq münasibətləri bundan sonra da uğurla inkişaf edəcək. Biz dostuq, qardaşıq, bütün məsələlərdə bir-birimizin yanındayıq, bir-birimizi dəstəkləyirik. Bu, bu gün belədir və həmişə də belə olacaq. Bizi çox dərin əlaqələr bağlayır. Bu gün biz siyasi, iqtisadi, bütün başqa sahələrdə çox yüksək səviyyəli əməkdaşlıq edirik. Siyasi əlaqələrimiz ən yüksək zirvədədir, iqtisadi sahədə yaxşı nəticələr var. Keçən il ticarət dövriyyəsi artmışdır, qarşılıqlı sərmayə qoyulur. Türkiyə Azərbaycana və Azərbaycan Türkiyəyə 10 milyard dollardan çox sərmayə qoymuşdur. Bu sərmayə qoyuluşu davam edir, daha da böyük rəqəmlərə çatacaq.

*Ardı 2-ci səh.*

## Quba Rayon Mərkəzi Xəstəxanasının tikintisi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq səhiyyə obyektlərinin tikintisinin davam etdirilməsi məqsədi ilə **qərara alıram:**

1. Quba Rayon Mərkəzi Xəstəxanasının tikintisinin başa çatdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.8.15-ci yarımbəndində göstərilmiş məbləğin 7,55 milyon (yeddi milyon beş yüz əlli min) manatı Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 mart 2018-ci il*

## Mərkəzi Seçki Komissiyasında 63 beynəlxalq müşahidəçi akkreditasiyadan keçib

Hazırda Mərkəzi Seçki Komissiyasında (MSK) 63 beynəlxalq müşahidəçi akkreditasiyadan keçib.

Bu barədə AZƏRTAC-a açıqlamasında MSK-nın media və ictimai əlaqələr şöbəsinin müdiri Şahin Əsədli məlumat verib. Şöbə müdiri bildirib ki, 26 ölkədən olan bu müşahidəçilər 6 beynəlxalq təşkilatı təmsil edirlər. Həmçinin 32 min 764 yerli müşahidəçi akkreditasiyadan keçib. Onlardan 542-si MSK-da akkreditasiyadan keçərək bütün ölkə ərazisində, 32 min 222-si isə dairə seçki komissiyalarında akkreditasiyadan keçərək müvafiq dairənin hüdudları daxilində müşahidə aparmaq hüququ qazanıb.



Bakı daha bir mötəbər yarışa - idman gimnastikası üzrə dünya kubokuna evsahibliyi edəcək. Milli Gimnastika Arenasında martın 18-dək davam edəcək turnirdə ümumilikdə 25 ölkədən, o cümlədən Azərbaycan, Belarus, Çili, Çin, Taypey (Çin), Xorvatiya, Finlandiya, Gürcüstan, Yunanıstan, İtaliya, İran, İsrail, Yaponiya, Qazaxıstan, Latviya, Litva, Niderland, Norveç, Filippin, Səudiyyə Ərəbistanı, Sloveniya, Cənubi Afrika Respublikası, Türkiyə, Ukrayna və Özbəkistanı təmsil edən 102 gimnast mübarizə aparacaq. Dördgünlük yarışlarda kişi gimnastlar 6, qadın atletlər isə 4 dəst medal uğrunda güclərini sınayacaqlar.

## 25 ölkə, 102 gimnast, 10 dəst medal...

### Bu gün Bakıda idman gimnastikası üzrə Dünya kubokuna start verilir



#### Gimnastikanın inkişafında yeni mərhələ

Sayca 3-cü dəfə belə nüfuzlu turnirin ölkəmizə həvalə edilməsi heç də təsadüfi deyil. Son illər idmanın bu növü Azərbaycanda sürətlə inkişaf edir. Bu nailiyyətlər Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın federasiyaya rəhbərliyi sayəsində mümkün olub. 2002-ci ildən Azərbaycan Gimnastika Federasiyasının (AGF) prezidenti olan Mehriban xanım Əliyevanın fəaliyyəti nəticəsində ölkədə idmanın bu növünün əsl inkişaf mərhələsi başlayıb.

Federasiyanın yeni rəhbərliyi ilk illərdə ölkə gimnastikasının imkanlarını öyrənib, gələcək fəaliyyət istiqamətlərini müəyyənləşdirib. Bu istiqamətlər gimnastika bölmələrinin fəaliyyətinin gücləndirilməsi, məşq üçün yaxşı şəraitin yaradılması, yeni klub və bölmələrin açılması, ölkə çempionatının yüksək səviyyədə təşkili, AGF-nin beynəlxalq əlaqələrinin qurulması, dünya və qitə federasiyaları ilə əməkdaşlığın genişləndirilməsi idi. Azərbaycan gimnastlarının beynəlxalq yarışlarda daha çox iştirakının təmin edilməsi, gimnastikanın maddi-texniki bazasının möhkəmləndirilməsi və təbliğ olunması istiqamətində mühüm nəticələr əldə edilib.

Məqsədyönlü və səmərəli fəaliyyət nəticəsində ölkə gimnastikası özünün yeni inkişaf mərhələsinə qədəm qoydu. Gimnastlarımız beynəlxalq turnirlərdə qazandıqları nəticələrlə xalqımızı sevindirməyə başladılar. Eyni zamanda bu sahədə aparılan məqsədyönlü fəaliyyət nəticəsində artıq Bakı beynəlxalq miqyaslı yarışlara evsahibliyi etməyə başladı.

#### Dünya gimnastikasının nəbzi Bakıda vurur

Beynəlxalq Gimnastika Federasiyasının Afinada keçirilmiş 74-cü konqresində Dünya kubokunun A kateqoriyalı mərhələsinin 2003-cü ilin avqustunda Azərbaycanda keçirilməsi barədə qərar qəbul edildi.

*Ardı 6-cı səh.*

# VI Qlobal Bakı Forumu

## Türkiyə-Azərbaycan dostluq, qardaşlıq münasibətləri uğurla inkişafdadır



*Əvvəli 1-ci səh.*

Bu il TANAP layihəsinin istismara verilməsini biz birlikdə qeyd edəcəyik. Bu, tarixi layihədir və uğurla başa çatır, ölkələrimizi bir-birinə daha da sıx bağlayacaq, eyni zamanda, bu layihədən faydalanan ölkələr üçün də yeni imkanlar açacaq. Keçən il biz Bakı-Tbilisi-Qars dəmir yolunun açılışını təntənəli şəkildə qeyd etdik və bu gün bu yol artıq uğurla fəaliyyət göstərir. Bakı-Tbilisi-Ceyhan və TANAP-dan sonra bu, üçüncü tarixi layihəmizdir. Ölkələrimiz bu layihəni birlikdə icra edirlər. Yəni, bütün sahələrdə bizim əməkdaşlığımızın çox gözəl nəticələri var. Bu nəticələr xalqlarımız, ölkələrimiz üçün çox əhəmiyyətlidir və Avrasiya qitəsi üçün də böyük əhəmiyyət daşıyır.

Biz bu gün bu və digər məsələləri müzakirə edəcəyik və Türkiyə ilə Azərbaycanın gələcək birgə fəaliyyəti haqqında danışacağıq. Bir daha xoş gəlmisiniz.

* * *

**Baş nazir Binəli YILDIRIM dedi:**

- Xoş gördük və çox təşəkkür edirəm, hörmətli cənab Prezident.

Sizin də ifadə etdiyiniz kimi, Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir. Ölkələrimiz arasındakı münasibətlər gündən-günə daha da inkişaf edir. Həm Türkiyədə, həm də Azərbaycanda qarşılıqlı investisiyalarımız, ticarətimiz artır, turizm sahəsində əməkdaşlığımız inkişaf edir. Biz bununla kifayətlənmirik. Eyni zamanda, region ölkələrinin də inkişaf etməsi üçün Türkiyə və Azərbaycan olaraq birlikdə çalışırıq. Qafqaz regionunda Gürcüstanın, Azərbaycanın və Türkiyənin həyata keçirdiyi layihələr - Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı-Tbilisi-Ceyhan neft, TANAP, Bakı-Tbilisi-Ərzurum təbii qaz layihələri təkcə bizim ölkələri maraqlandıran layihələr deyil, eyni zamanda, Avropanı da maraqlandıran, enerji təhlükəsizliyini təmin edən layihələrdir. Uzaq Şərqdən, Orta Asiyadan Azərbaycan ərazisindən Türkiyəyə və Avropaya daşımaları təmin edəcək tarixi "İpək Yolu" - Bakı-Tbilisi-Qars layihəsi Sizin qətiyyətiniz və təşəbbüsünüzlə, cənab Prezidentimizin də töhfəsi ilə reallaşdı. Vaxtilə bir xəyal olan bu layihə indi bölgəyə xidmət etməyə başlayıb və eyni zamanda, Naxçıvana da ciddi logistik dəstək verir.

Bu gün qardaş və dost Azərbaycanda olmaqdan böyük məmnunluq duyuram. Bizə göstərdiyiniz səmimi münasibətə və qonaqpərvərliyə görə Sizə təşəkkür edirəm.

* * *

Görüşdən sonra Prezident İlham Əliyev və Baş nazir Binəli Yıldırım birgə nahar etdilər.

## Azərbaycanın və Türkiyənin baş nazirlərinin görüşü olub

Martın 14-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə Türkiyə Respublikasının Baş naziri Binəli Yıldırım ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə Baş nazir Artur Rasi-zadə qardaş Türkiyənin Baş naziri Binəli Yıldırımın ölkəmizə səfərindən və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçiriləcək VI Qlobal Bakı Forumunda iştirakından məmnunluğunu bildirdi. Azərbaycan xalqının Türkiyədə baş verən prosesləri yaxından izlədiyini vurğulayan Artur Rasi-zadə qardaş və dost ölkələrimizin uğurla inkişaf etdiyini diqqətə çatdırdı. Baş nazir Azərbaycanın və Türkiyənin hər zaman bir-birinin yanında olduqlarını dedi.

Azərbaycanın və Türkiyənin bir millət, iki dövlət olduqlarını bildirən Baş nazir Binəli Yıldırım qardaş ölkələrimizin gündən-günə inkişaf etdiklərini məmnunluqla vurğuladı. Binəli Yıldırım Azərbaycanın və Türkiyənin birlikdə qlobal əhəmiyyətli layihələr həyata keçirdiklərini qeyd etdi. Baş nazir Azərbaycan, Türkiyə və Gürcüstanın birgə reallaşdırdıqları irimiqyaslı layihələrin bölgədə əməkdaşlığın inkişafına mühüm töhfə verdiyini dedi. Türkiyəli qonaq Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin istifadəyə verilməsinin tarixi İpək yolunun bərpasında mühüm əhəmiyyət daşımaqla yanaşı, beynəlxalq yükdaşımaların da inkişafında önəmli rol oynayacağını diqqətə çatdırdı. O, ölkələrimiz arasında iqtisadi əməkdaşlığın inkişafında qarşılıqlı sərmayələrin önəmini xüsusi qeyd etdi.



Türkiyənin Baş naziri XII əsrdə yaşamış görkəmli Azərbaycan mütəfəkkiri Nizami Gəncəvinin adını daşıyan beynəlxalq mərkəz tərəfindən forumun təşkil olunmasından və bu mötəbər tədbirdə iştirakından məmnunluğunu bildirdi.

## Qlobal Bakı Forumunun fəaliyyəti dünyada gedən proseslərə müsbət təsir göstərir





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də VI Qlobal Bakı Forumunun işində iştirak edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri xanım Vayra Vike-Freyberqanı və İsmail Serageldini, keçmiş dövlət və hökumət başçılarını, Mərkəzin İdarə Heyətinin üzvlərini qəbul edib.

AZƏRTAC xəbər verir ki, VI Qlobal Bakı Forumunun önəmini vurğulayan dövlət başçısı bu tədbirin mütəmadi olaraq keçirilməsindən, getdikcə daha çox iştirakçını özünə cəlb etməsindən və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin potensialının və beynəlxalq səviyyədə nüfuzunun artmasından məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri xanım Vayra Vike-Freyberqanın və İsmail Serageldinin, o cümlədən İdarə Heyəti üzvlərinin bütün bu işlərə verdiyi töhfəni yüksək qiymətləndirdi və mərkəzin İdarə Heyətinin üzvlərinin fəal iş aparmaları nəticəsində bu təşkilatın fəaliyyətinin gündəliyinin genişləndiyini bildirdi.

Xoş sözlərə və mərkəzin işinə verilən dəstəyə görə dövlət başçısına minnətdarlığını bildirən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin Qlobal Bakı Forumunun böyük önəm daşıdığını və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin beynəlxalq səviyyədə nüfuzunun artdığını məmnunluqla vurğuladı. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Çində, ABŞ-da və dünyanın bir sıra ölkələrində tədbirlər keçirdiyini deyən qonaq bunu mərkəzin fəaliyyət coğrafiyasının genişlənməsinin və dünyada bu quruma olan marağın göstəricisi kimi dəyərləndirdi.

Görüş iştirakçıları Azərbaycanın beynəlxalq rolunun artdığını, ölkəmizin sabitliyə və təhlükəsizliyə töhfə verdiyini qeyd edərək bildirdilər ki, Qlobal Bakı Forumunun fəaliyyəti dünyada gedən proseslərə müsbət təsir göstərir və artıq beynəlxalq tədbirə çevrilib.

Söhbət zamanı bu tədbirin müxtəlif tərəflər arasında fikir mübadiləsinin və müzakirələrin aparılması üçün yaxşı imkan yaratdığı vurğulandı.

Sonda xatirə şəkli çəkdirildi.

## Azərbaycan ilə Monteneqro arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişafı məsələləri müzakirə olunub

Martın 14-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə ATƏT Parlament Assambleyasının İpək Yoluna Dəstək Qrupunun təşkilatçılığı ilə Bakıda keçirilən beynəlxalq konfransda iştirak etmək üçün ölkəmizə səfərə gəlmiş Monteneqro parlamentinin sədri İvan Brayoviçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Avropanın enerji təhlükəsizliyinin təminatında yaxından iştirak edən Azərbaycan Respublikasının, həmçinin Monteneqro ilə qarşılıqlı faydalı əməkdaşlığa töhfələr verdiyi məmnunluqla qeyd edilib. Belə ki, bütün beynəlxalq tədbirlərdə bir-birini dəstəkləyən ölkələrimiz iqtisadiyyatın müxtəlif sahələrində də uğurla əməkdaşlıq edir, nəqliyyat, sənaye, investisiya, turizm, ticarət və digər qeyri-neft sahələrində müştərək layihələrin reallaşdırılmasına maraq göstərirlər. Belə yüksək səviyyəli səfərlərin, iş adamları arasında təcrübə mübadiləsinin, birbaşa əlaqələr qurulmasının münasibətlərin yeni mərhələyə yüksəlməsində mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Söhbət zamanı təcavüzkar separatizmin sülhə və əmin-amanlığa böyük təhlükə olduğunu qeyd edən tərəflər, Ermənistanın qeyri-konstruktiv siyasəti səbəbindən hələ də həlli uzanan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin də yalnız beynəlxalq hüququn normaları çərçivəsində, Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında həllinin vacibliyini bildiriblər. Görüşdə qarşılıqlı faydalı əməkdaşlığın inkişafına dair bir sıra digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılıb.

## Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Dövlət strukturlarında və dövlət xidmətlərinin həyata keçirilməsində informasiya və kommunikasiya texnologiyalarından istifadə olunması, innovativ həllərin tətbiqi dövlət siyasətinin prioritetlərindən biridir və bu sahədə davamlı inkişaf üçün mühüm tədbirlər görülmüşdür. Ölkə üzrə internet şəbəkəsinin qurulması, açıq hökumətin təşviqi internet istifadəçisi sayının artmasına səbəb olmuş, ictimai əhəmiyyət daşıyan informasiyanın açıqlığı və informasiya əldə etmə azadlığı təmin edilmişdir.

Bununla belə, vətəndaşlara şəffaf, operativ və resurslara qənaət etməklə xidmət göstərilməsi üçün dövlət xidmətlərini tam elektronlaşdırmaq, dövlət informasiya ehtiyatlarının analitik təhlilini aparmaq və nəticələrindən dövlət və özəl sektorun istifadəsi imkanlarını yaratmaq məqsədi ilə dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılması, idarə olunması və qarşılıqlı inteqrasiyasının təmin edilməsi sahəsində vahid yanaşmanın və standartların tətbiqi və rəqəmsal hökumətə keçid prosesinin sürətləndirilməsi zəruridir.

Bununla əlaqədar bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsini, dövlət nəzarətinin gücləndirilməsini və görülən işlərin səmərəliliyinin artırılmasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi:

1.1. elektron hökumət sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirsin;

1.2. dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və effektiv idarə edilməsi sahəsində koordinasiyanı həyata keçirmək məqsədi ilə əlaqələndirici qurum funksiyalarını yerinə yetirsin;

1.3. "Elektron hökumət" portalının idarə olunmasını və fəaliyyətini təmin etsin və təkmilləşdirilməsi ilə əlaqədar zəruri tədbirlər görsün;

1.4. dövlət orqanlarının informasiya sistemləri və ehtiyatları arasında informasiya mübadiləsini və elektron xidmətlərin göstərilməsini "elektron hökumət" portalı vasitəsilə təşkil etsin;

1.5. elektron xidmətlərin, o cümlədən dövlət-biznes (G2B - government to business), biznes-dövlət (B2G - business to government) elektron xidmətlərinin inkişafı ilə bağlı tədbirlər görsün;

1.6. "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.7. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və digər aidiyyəti qurumlarla birlikdə "Milli Məkan Məlumatlarının formalaşdırılması və inteqrasiyası Qaydaları"nın layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.8. "Rəqəmsal hökumətə keçid üzrə Fəaliyyət Planı"nın layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.9. bu fərman ilə verilmiş tapşırıqların icrası ilə bağlı Azərbaycan Respublikasının Prezidentinə hesabat versin.

2. Bu fərmanın 1-ci hissəsində nəzərdə tutulan vəzifələrin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxs yaradılsın.

3. "Elektron hökumət" portalı texniki-texnoloji infrastrukturu ilə birlikdə Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin balansından Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin balansına verilsin.

4. Müəyyən edilsin ki, bu fərmanın 2-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxsin təsisçisinin "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində qeyd edilən səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi həyata keçirir.

5. Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi:

5.1. bu fərmanın 3-cü hissəsində müəyyən edilən tapşırığın icrasını üç ay müddətində təmin etsin;

5.2. dövlət informasiya ehtiyatlarının və sistemlərinin data mərkəzdə saxlanılmasının effektiv təşkili üçün tədbirlər görsün;

5.3. "Rəqəmsal hökumət"ə keçid prosesinin sürətləndirilməsi məqsədilə mövcud kommunikasiya infrastrukturunun təkmilləşdirilməsi ilə bağlı tədbirlər görsün.

6. Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə ölkədə informasiya təhlükəsizliyi sahəsində mövcud vəziyyəti, o cümlədən qanunvericiliyi təhlil edərək, qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaqla müvafiq sahənin təkmilləşdirilməsinə dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

7. Azərbaycan Respublikasının Vergilər Nazirliyi "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxsin dövlət qeydiyyatı ilə bağlı zəruri tədbirləri həyata keçirsin.

8. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin təklifləri əsasında "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxsin fəaliyyətinin təşkili ilə bağlı maliyyə məsələlərini həll etsin.

9. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

9.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

9.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

9.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

9.4. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

10. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 mart 2018-ci il*

# VI Qlobal Bakı Forumu

## Azərbaycan-Türkiyə münasibətləri ən yüksək səviyyədədir



Martın 14-də Milli Məclisin Sədri Oqtay Əsədov Azərbaycanda səfərdə olan Türkiyənin Baş naziri Binəli Yıldırımın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Oqtay Əsədov Azərbaycan-Türkiyə münasibətlərinin ən yüksək səviyyədə olduğunu deyib. Bildirib ki, bu münasibətlərin inkişafında dövlətlərimizin başçılarının qarşılıqlı səfərlərinin böyük rolu var. Hökumətlərimiz və parlamentlərimiz arasında da əlaqələr davamlı olaraq genişlənir.

İqtisadi münasibətlərdən danışan Milli Məclisin Sədri qeyd edib ki, iki ölkə arasında ticarət dövriyyəsi milyardlarla ölçülür. İki qardaş ölkə bir-birinin iqtisadiyyatına böyük həcmdə investisiyalar yatırır.

Görüşdə iki qardaş ölkə arasında əlaqələrin daha da inkişaf etdirilməsində və möhkəmlənməsində parlamentlərin rolundan, işçi qruplarının fəaliyyətindən, deputatlarımızın beynəlxalq təşkilatlarda xalqlarımız və dövlətlərimiz üçün mühüm əhəmiyyət kəsb edən məsələlərdə eyni mövqedən çıxış etmələrindən, Dağlıq Qarabağ problemindən söhbət açılıb.

Milli Məclisin Sədri Türkiyə Böyük Millət Məclisində Xocalı soyqırımı ilə bağlı keçirilmiş sərgidə iştirakına görə Baş nazir Binəli Yıldırıma təşəkkürünü bildirib.

Baş nazir Binəli Yıldırım VI Qlobal Bakı Forumunda iştirak etmək məqsədilə ölkəmizə səfəri çərçivəsində keçirdiyi görüşləri yüksək qiymətləndirib.

Dağlıq Qarabağ münaqişəsindən danışan Baş nazir deyib ki, Türkiyə Azərbaycan torpaqlarının Ermənistanın işğalından azad olunması üçün bundan sonra da dəstəyini davam etdirəcək. O, münaqişənin tezliklə Azərbaycanın haqlı mövqeyinə uyğun olaraq həll ediləcəyinə inandığını bildirib.

Söhbət zamanı bölgədə həyata keçirilən irimiqyaslı iqtisadi layihələrdən, Türkiyə-Azərbaycan münasibətlərinin gələcək inkişafından da danışılıb.

Görüşdə Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov, sədr müavinləri Bahar Muradova, Valeh Ələsgərov, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov, hər iki ölkənin səfirləri Erkan Özoral, Xəzər İbrahim və digər rəsmi şəxslər iştirak ediblər.

*Foto Fərman BAĞIROVUNDUR*

## Monteneqro Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir



Martın 14-də Milli Məclisin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Monteneqro parlamentinin sədri İvan Brayoviçin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, sədr bu cür görüşlərin Azərbaycan-Monteneqro münasibətlərinin daha da inkişaf etdirilməsi baxımından çox əhəmiyyətli olduğunu bildirib. Qeyd edib ki, əməkdaşlığımız müsbət dinamikaya malikdir. İki ölkə arasında siyasi dialoqun davamlı şəkildə aparılması, dövlət başçıları və nümayəndə heyətləri səviyyəsində mütəmadi qarşılıqlı səfərlərin həyata keçirilməsi, aparılan danışıqlar əlaqələrimizin daha da dərinləşməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

"İqtisadi sahədə əlaqələrimiz mövcud potensiala cavab verməsə də, bu sahədə yaxın gələcəkdə irəliləyişə nail olunacağına inanırıq. Hökumətlərarası Komissiyanın yaradılması bu fikri bir daha təsdiqləyir. Mədəni və iqtisadi əlaqələr üzrə "Az-Mont" Mərkəzinin fəaliyyətə başlaması birgə səmərəli fəaliyyət üçün yaxşı imkanlar açır. Bu gün Azərbaycan sərmayəsi Monteneqro iqtisadiyyatının inkişafında fəal iştirak edir. Azərbaycan Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi neft və qaz kəmərlərinin çəkilişinə öz töhfəsini verib. Ölkəmizin fəal iştirakı ilə "Cənub qaz dəhlizi"nin reallaşması Avropanın enerji təhlükəsizliyinin daha da möhkəmlənməsində əhəmiyyətli rol oynayacaq", - deyə Oqtay Əsədov vurğulayıb.

Milli Məclisin Sədri münasibətlərimizin daha da dərinləşməsi baxımından hər iki ölkənin parlamentlərində dostluq qruplarının fəaliyyətini müsbət dəyərləndirib. Bildirilib ki, nüfuzlu beynəlxalq qurumlarda deputatlarımızın mütəmadi görüşləri və prinsipial məsələlər üzrə aparılan danışıqlar mühüm əhəmiyyət kəsb edir. Spiker ATƏT PA-nın İpək Yoluna Dəstək Qrupunun Beynəlxalq Bakı Konfransında Monteneqro deputatlarının iştirakının mövcud münasibətlərin dərinləşməsinə xidmət etdiyini söyləyib.

Oqtay Əsədov qeyd edib ki, Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ məsələsində Monteneqronun ölkəmizin ərazi bütövlüyünü dəstəkləməsini yüksək qiymətləndiririk.

Spiker bu gün Azərbaycanın nüfuzlu beynəlxalq tədbirlərə müvəffəqiyyətlə evsahibliyi etdiyinə diqqət çəkərək "Expo 2025" Ümumdünya Sərgisinə Bakının evsahibliyi etmək üçün namizədliyinin Monteneqro tərəfindən dəstəklənəcəyinə ümidvar olduğunu bildirib.

Monteneqro parlamentinin sədri İvan Brayoviç İpək Yoluna Dəstək Qrupunun Bakı Konfransında iştirakından və səfər çərçivəsində ölkəmizdə keçirdiyi görüşlərdən məmnun qaldığını söyləyib. Bakının gözəlliyinə məftun olduğunu dilə gətirən qonaq dost Azərbaycan xalqının əldə etdiyi nailiyyətlərə sevindiklərini bildirib. O, Milli Məclisdə deputatların fəaliyyəti üçün yaradılmış şəraiti yüksək qiymətləndirib. Qeyd edilib ki, Monteneqro Azərbaycanla əlaqələrin inkişafına böyük əhəmiyyət verir. Əlaqələrimizin möhkəmlənməsi üçün hər iki tərəfin siyasi iradə nümayiş etdirməsini xüsusi vurğulayan qonaq iqtisadi sahədə də tezliklə yüksək göstəricilərə nail olacaqlarını söyləyib. O, ölkəsinin NATO-ya tamhüquqlu üzv olduğunu, Avropa İttifaqı ilə üzvlük barədə intensiv danışıqlar aparıldığını deyib. Bildirilib ki, Monteneqro Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq normaları əsasında ədalətli həllinə inanır.

Parlamentlərarası əlaqələrin inkişafının münasibətlərimizin dərinləşməsində böyük rol oynadığını söyləyən İvan Brayoviç dostluq qrupu üzvlərinin mütəmadi səfərlərini önəmli hesab edib.

*Foto Fərman BAĞIROVUNDUR*

## VI Qlobal Bakı Forumu çərçivəsində "Nizami mədəni irsinin müasir dövrdə interpretasiyası" mövzusunda beynəlxalq elmi konfrans keçirilib

Martın 14-də VI Qlobal Bakı Forumu çərçivəsində Diasporla İş üzrə Dövlət Komitəsi, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və Azərbaycan Müqayisəli Ədəbiyyat Assosiasiyasının birgə təşkilatçılığı ilə "Nizami mədəni irsinin müasir dövrdə interpretasiyası" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) vitse-prezidenti akademik İsa Həbibbəyli dahi şair Nizami Gəncəvinin xalqımızın yetişdirdiyi, dünya ədəbiyyatına böyük töhfə verən qüdrətli simalardan biri olduğunu deyib. Bu dahi söz ustadını Şərqin və Qərbin görkəmli sənətkarları ilə müqayisə edən akademik Nizami Gəncəvini dünya ədəbiyyatının Makedoniyalı İsgəndəri adlandırıb. O deyib: "Makedoniyalı İsgəndər hərbi qüdrəti, gücü ilə, Nizami Gəncəvi isə ədəbi şöhrəti, əsərləri ilə dünyanı fəth edib".

Akademik diqqətə çatdırıb ki, Nizami Gəncəvinin beş ölməz poeması dünya ədəbiyyatına tamamilə yeni bir poetik səs, nəfəs gətirib. Bu poemalar "Xəmsə" adı altında dünya ədəbiyyatı xəzinəsinə töhfəsini verib. Nizami Gəncəvinin Şərq intibahının zirvəsində dayandığını deyən İ.Həbibbəyli dahi şairin ədəbi məktəb yaratdığını bildirib. Vurğulanıb ki, bu ədəbi məktəb bütün mədəni dünyada yaşayır. Çünki Nizaminin əsərlərindəki ideyalar dünyanı düşündürən ideyalar olub.

Akademik ölkəmizdə Nizami Gəncəvi ilə bağlı bir çox tədqiqatların aparıldığını, onun haqqında əsərlər yazıldığını diqqətə çatdıraraq qeyd edib ki, bu əsərlərdən zəngin bir kitabxana yaratmaq mümkündür. "Nizami XXI əsrdə dünyanı yenə də ədalət, azadlıq, sülhə çağırış idealları uğrunda mübarizəyə səsləyir", - deyə İ.Həbibbəyli çıxışını yekunlaşdırıb.

AMEA-nın Humanitar Elmlər Bölməsinin akademik-katibi, Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimli müstəqillik illərində ölkəmizdə nizamişünaslıq sahəsində aparılan tədqiqat işlərindən danışıb. O, dünyada dahi Nizami Gəncəvinin əsərlərinə daim ehtiyac duyulduğunu diqqətə çatdırıb. Bildirilib ki, Nizaminin yaşamasının sirri onun humanizmində, ensiklopedik biliyində, əsərlərindəki multikultural dəyərlərdədir.

Sonra Azərbaycan Müqayisəli Ədəbiyyat Assosiasiyasının sədri, professor Rəhilə Qeybullayeva konfrans haqqında məlumat verib.

Misirin İsgəndəriyyə Kitabxanasının direktoru İsmail Serageldin Nizami Gəncəvini qeyri-adi şəxsiyyət, fitri istedad sahibi, bir neçə dildə danışa bilən, ensiklopedik biliyə malik bir insan kimi səciyyələndirib. Nizaminin "Divan" yazdığını, lakin dünya ədəbiyyatı tarixinə adını "Xəmsə" ilə həkk etdiyini deyən İ.Serageldin vurğulayıb ki, bu əsərlər səkkiz əsrdən çoxdur ki, yaşayır və dünyada qəbul edilir. Bunu dünyanın tanınmış tənqidçiləri də təsdiq edir. Nizaminin əsərləri bu gün mədəniyyətlərarası dialoq platforması kimi çıxış edir. Onun əsərlərində qadın təkcə gözəllik predmeti deyil, həm də ağıl sahibi kimi təsvir olunur.

Nizaminin əsərlərindəki ideyaların genişliyindən danışan Kembric Universitetinin təmsilçisi Kristin van Rumbeke hələ tələbəlik illərindən onun əsərlərinə aşiq olduğunu, bu sevginin indi də davam etdiyini deyib. Dahi Nizaminin ədəbi qaynaqlardan və süjetlərdən yaradıcılıqla istifadə etdiyini bildirən K.Rumbeke şairin ideyaları sadə və poetik şəkildə oxucuya çatdırmaq bacarığını xüsusi vurğulayıb. Eyni zamanda, alim Nizaminin geniş dini biliklərə, eləcə də dövrünün elmlərinə sahib olduğunu qeyd edib.

Sonra elmi konfrans işini "Nizami və milli ədəbiyyat-mədəniyyət nəzəriyyələri dəyişən sərhədlər diskursunda", "Arxetiplər və təkrarlanan mədəniyyətlər", "Milli kimlik: ortaq keçmiş və onun müasir interpretasiyası", "Nizami yaradıcılığında konseptlər, obrazlar və dəyərlər: müasir dövrdən keçmişə baxış", "Nizami irsi orta əsrlər simvolları və regional konseptlər diskursunda", "Nizami irsi musiqi interpetasiyasında və tətbiqi incəsənətdə" mövzularında panel iclaslarla davam etdirib.

Panel iclaslarda Azərbaycanın və xarici ölkələrin alimlərinin mühazirələri dinlənilib, müzakirələr aparılıb, suallar cavablandırılıb.

## Professor Emadeddin NAGHİPOUR: "Kanadada Nizami Gəncəvinin əsərlərinə böyük maraq var"

Hazırda bir çox ali təhsil ocaqlarında Nizami Gəncəvinin əsərləri üzrə elmi araşdırmalar aparılır. Bu, getdikcə qlobal xarakter daşımağa başlayıb. Bu gün Azərbaycanla yanaşı, bir sıra digər ölkələrdə də, xüsusilə Türkiyə, İran, Avropa ölkələri və Kanadada Nizami Gəncəvinin yaradıcılığı diqqət mərkəzindədir. Kanadanın "Western University" Universitetində tələbələr məruzəmdən sonra mənə yaxınlaşıb Nizami Gəncəvi barədə daha geniş məlumat almaq istədiklərini bildirdilər. Sevindirici haldır ki, Nizami Gəncəvinin əsərlərinə maraq gündən-günə artır.

Bu sözləri AZƏRTAC-a müsahibəsində VI Qlobal Bakı Forumu çərçivəsində keçirilən "Nizami mədəni irsinin müasir dövrdə interpretasiyası" mövzusunda beynəlxalq elmi konfransın iştirakçısı, Kanadanın "Western University" Universitetinin professoru Emadeddin Naghipour deyib.

Emadeddin Naghipour bildirib ki, ilk dəfədir belə genişmiqyaslı konfransda iştirak edir və o, bir çox yeni məlumatlar əldə edib. "Dahi Nizaminin yaradıcılığını anlamaq üçün təkcə kitabları oxumaq kifayət deyil, həmçinin bir çox elmi araşdırmalarla və analitik materiallarla tanış olmaq lazımdır. Burada aparılan müzakirələrdə yeni ideyalar eşitdim, onları gələcək işlərimdə mütləq tətbiq edəcəyəm", - deyə kanadalı professor əlavə edib.

## Türkiyənin Anadolu Agentliyinin və TRT kanalının rəhbərləri Azərbaycanda görüşlər keçirir



Türkiyənin Anadolu Agentliyinin və TRT televiziya kanalının rəhbərləri Azərbaycanda bir sıra görüşlər keçirir. AZƏRTAC xəbər verir ki, martın 14-də bu görüşlər çərçivəsində ilk olaraq agentliyin və televiziyanın rəhbərləri Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi - şöbə müdiri Əli Həsənovla görüşüblər.

Görüşdə ölkələrimiz arasında informasiya və təbliğat sahələrində birgə fəaliyyətin geniş aspektləri müzakirə olundu. Anadolu Agentliyi və TRT, o cümlədən Azərbaycanın rəsmi kütləvi informasiya vasitələri arasındakı əlaqələrdən, ayrı-ayrı hadisələrlə bağlı hər iki ölkəni təmsil edən kütləvi informasiya vasitələrinin birgə fəaliyyətindən söhbət açıldı, xüsusən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Xocalı soyqırımı, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi, Azərbaycanda keçiriləcək prezident seçkiləri, o cümlədən Türkiyənin cəlb olunduğu regional münaqişələr, Afrin hadisələri, qardaş ölkədə yaşanan daxili proseslər, ictimai-siyasi hadisələr və digər məsələlərlə bağlı indiyə qədər olduğu kimi, gələcəkdə də razılaşdırılmış birgə informasiya siyasətinin yürüdülməsinin zəruriliyi diqqətə çatdırıldı. Söhbət zamanı Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın verdikləri tapşırıqlara müvafiq olaraq iki ölkəni təmsil edən rəsmi kütləvi informasiya vasitələrinin fəaliyyətinin əlaqələndirilməsi məsələsinin zəruriliyi vurğulandı.

Qeyd edək ki, Anadolu Agentliyi və TRT kanalının rəhbərlərinin Azərbaycana səfərinin məqsədi VI Qlobal Bakı Forumunda iştirak etməkdir. Onlar, eyni zamanda, AZƏRTAC-ın, Azərbaycan Televiziyası, İctimai Televiziya və ölkəmizin digər kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşlər keçirəcəklər.

## Anadolu agentliyinin və TRT telekanalının rəhbərləri AZƏRTAC-da olublar

Türkiyənin Anadolu agentliyinin baş direktoru Şenol Kazancı və TRT telekanalının rəhbəri İbrahim Eren AZƏRTAC-da olublar.

AZƏRTAC-ın baş direktoru Aslan Aslanov ilə keçirilən görüşdə Azərbaycan-Türkiyə arasında bütün istiqamətlərdə, o cümlədən media sahəsində əlaqələrin yüksək səviyyədə olduğu bildirilib. Qeyd olunub ki, AZƏRTAC və Anadolu uzun illərdir həm ikitərəfli qaydada, həm də beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlıq edirlər. Hazırda AZƏRTAC-ın eyni vaxtda Dünya Xəbər Agentlikləri Konqresinə və Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatına sədrlik etdiyini diqqətə çatdıran baş direktor Anadolu-nun daim AZƏRTAC-a dəstək verdiyini, iki agentliyin səmərəli informasiya mübadiləsi apardığını vurğulayıb. Görüşdə türkdilli agentliklərin bu təşkilatlarda fəaliyyətinin genişləndirilməsi, eyni zamanda, hazırda AZƏRTAC-ın sədri olduğu Türkdilli İnformasiya Agentlikləri Birliyinin növbəti iclasının toplanması ilə bağlı məsələlər nəzərdən keçirilib.

Anadolu agentliyinin baş direktoru Şenol Kazancı iki qardaş ölkənin hər zaman bir-birinin yanında olduğunu, Türkiyə və Azərbaycan arasında əlaqələrin nümunəvi yaxınlığı ilə seçildiyini qeyd edib. "AZƏRTAC-ın timsalında Azərbaycanın iki böyük beynəlxalq media qurumuna sədrlik etməsi bizim üçün qürurvericidir", - deyən Ş.Kazancı Anadolu-nun bundan sonra da AZƏRTAC-ın təşəbbüslərinə dəstək verəcəyini bildirib.

TRT-nin Azərbaycandakı təmsilçiliyinin uzun illərdir uğurla fəaliyyət göstərdiyini deyən telekanalın baş direktoru İbrahim Eren rəhbəri olduğu media qurumunun iki ölkə arasındakı əlaqələrə, Azərbaycanın bütün sahələrdə uğurlarının işıqlandırılmasına böyük diqqət ayırdığını söyləyib.

Görüşdə, həmçinin Anadolu agentliyinin və TRT-nin Bakı nümayəndəliklərinin rəhbərləri Tolqa Özgənc və Murat Akkoç iştirak ediblər.

## Dünya yenidən Bakıda toplaşır

*Əvvəli 1-ci səh.*

Forumun qonaqları arasında Latviya Prezidenti Raymonds Veyonis, Makedoniya Prezidenti George İvanov, Albaniya Prezidenti Ilir Meta, Monteneqro Prezidenti Filip Vuyanoviç, Gürcüstan Prezidenti Giorgi Marqvelaşvili, Səudiyyə Ərəbistanı Şahzadəsi, Kral Faysal Araşdırma və İslami Çalışmalar Mərkəzinin sədri Turki əl-Faysal var idi.

Bütün bunlar göstərir ki, Qlobal Bakı Forumu dünyanın demək olar ki, bütün dövlətlərindən siyasətçiləri, diplomatları birləşdirən diskussiya və dialoq məkanıdır. Ötən 5 forumun tərkibi göstərir ki, bu diskussiyalara görkəmli dövlət xadimləri, tanınmış siyasətçilər qoşulurlar. Ona görə də bu forumun dövlətlərarası əməkdaşlığa, siyasi münasibətlərə konstruktiv töhfə verdiyi, qarşılıqlı siyasi dialoq üçün əlverişli şərait yaratdığı şübhəsizdir.

Bu gün isə Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə VI Qlobal Bakı Forumu öz işinə başlayır. "İnklüziv cəmiyyətlərin qurulması üçün ziddiyyətlərin uyğunlaşdırılması" mövzusuna həsr olunan budəfəki forumda beynəlxalq münasibətlərdə güc anlayışı və meydana çıxan yeni güclər, çoxluqlar milli azlıqlara qarşı, Yaxın Şərq regionunda sülh və təhlükəsizlik, Balkan regionunda hazırkı və gələcək vəziyyət - regional təhlükəsizlik məsələlərinin proqramı və ya yeni geosiyasi şahmat lövhəsi, Çinin xarici siyasəti, kapitalizmdə iqtisadi inkişaf və ətraf mühitin deqradasiyası məsələləri, nəsillər arasındakı bağların qırılması, dini-mədəni müxtəlifliyin siyasi liderlik uğrunda rolu kimi mövzular müzakirə ediləcək.

Martın 17-dək davam edəcək forumun işində Monteneqro Prezidenti Filip Vuyanoviç, Albaniya Prezidenti Ilir Meta, Makedoniya Prezidenti George İvanov, Moldova Prezidenti İqor Dodon, Mavriki Prezidenti Amina Qurab-Fakim, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Mladen İvaniç, Türkiyənin Baş naziri Binəli Yıldırım və xarici işlər naziri Mövlut Çavuşoğlu, Fələstin Baş nazirinin müavini Ziad Abu Amr, Bosniya və Herseqovina hökumət başçısının müavini Mirko Sarovic, Rumıniya Baş nazirinin müavini Ana Birçall daxil olmaqla 10-dan çox ölkənin rəhbər şəxsləri iştirak edir. Eyni zamanda Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü olan ölkələrin sabiq dövlət və hökumət başçıları, tanınmış ictimai və siyasi xadimlərin də daxil olduğu 500 nəfərə yaxın qonaq tədbirdə iştirak etmək üçün Bakıya gəlib.

Qlobal Bakı Forumu artıq öz əhəmiyyətinə görə lokal və regional münaqişələrin müzakirəsi çərçivəsindən çıxaraq bütün dünyada gedən proseslərə münasibət bildirən, qlobal problemlərin həlli yollarının müzakirəsinə yol açan beynəlxalq platformaya çevrilib. Ona görə forum müzakirə, dialoq xarakteri daşısa da, dünyanın qlobal məsələlərinin həllində müstəsna rol oynayır və bu da dövlətlərarası münasibətlərdə öz əksini tapır. Təcrübə göstərir ki, mövcud problemlərin həllinə müsbət təsir baxımından çox mühüm əhəmiyyət kəsb edir.

Bu, Azərbaycanın paytaxtında keçirilən artıq altıncı forumdur. Böyük çətinliklərin olduğu indiki dövrdə fikir mübadiləsi aparmaq liderlər üçün əhəmiyyətlidir. Bakı platforması isə bu problemlərin müzakirəsi baxımından böyük əhəmiyyət kəsb edir və ən önəmlisi müsbət təşəbbüslərin irəli sürüldüyü bir məkandır.

**Rəşad CƏFƏRLİ,**
**"Azərbaycan"**

# Azərbaycan Mətbuat Şurasının 15 illik yubileyi qeyd edilib






Martın 14-də Azərbaycan Mətbuat Şurasının 15 illik yubileyinə həsr olunan mərasim keçirilib. AZƏRTAC xəbər verir ki, mərasimdə Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, dövlət və hökumət qurumlarının, diplomatik korpusun nümayəndələri, Mətbuat Şurası İdarə Heyətinin üzvləri, Milli Məclisin deputatları, media təmsilçiləri iştirak ediblər.

Prezidentin köməkçisi Əli Həsənov tədbirdə çıxış edərək Mətbuat Şurasının 15 illik fəaliyyətini yüksək qiymətləndirib. Mətbuat Şurasının milli mətbuatımızın müasir inkişafına dəyərli töhfələr verdiyini vurğulayan Əli Həsənov deyib: “Bildiyiniz kimi, bir neçə gün bundan əvvəl Azərbaycan jurnalistlərinin VII qurultayı keçirildi və bu qurultayda Prezident İlham Əliyevin təbrik məktubunu səsləndirdim. Bu təbrik məktubunda Mətbuat Şurasının fəaliyyətinə çox yüksək qiymət verilib. Məktubda Azərbaycan cəmiyyətində media-dövlət, media-vətəndaş münasibətlərinin formalaşmasında, media mənsubları ilə ayrı-ayrı subyektlər arasındakı münasibətlərin sivil normalarının bərqərar olmasında Mətbuat Şurasının rolu qeyd edilib. Ötən müddətdə mətbuatın özünütənzimləmə mexanizminin, o cümlədən jurnalistlərin əxlaq kodeksinin yaradılması və media nümayəndələri arasında təbliği işində Mətbuat Şurasının fəaliyyətinə yüksək qiymət verilib. Mətbuat Şurasının fəaliyyətinə ulu öndər Heydər Əliyev də yüksək qiymət vermişdi”.

Prezidentin köməkçisi vurğulayıb ki, Mətbuat Şurası cəmiyyətimizdə, jurnalist ictimaiyyətində, bu quruma müraciət edən ayrı-ayrı vətəndaşlar arasında, həmçinin dövlət qurumları arasında nüfuz qazanıb. İnanırıq ki, Mətbuat Şurası fəaliyyətini getdikcə daha da möhkəmləndirəcək.

Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov bildirib ki, şura son 15 ildə Azərbaycanda söz və fikir azadlığının inkişafında böyük rol oynayıb. Mətbuat Şurası 15 il bundan əvvəl 250-yə yaxın kütləvi informasiya vasitəsi, jurnalist təşkilatı tərəfindən təsis edilib. Yarandığı gündən indiyədək şuraya 12 mindən çox şikayətin daxil olduğunu vurğulayan Ə.Amaşov qeyd edib ki, şura bütün bu şikayətləri araşdırıb və lazımi qiymət verilib. Azərbaycan dövləti Mətbuat Şurasına daim dəstək verib. Dövlətimiz şuranın kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı təkliflərini dəstəkləyib.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai bildirib ki, Mətbuat Şurası 15 il ərzində böyük inkişaf yolu keçib. BMT Azərbaycanda müstəqil medianın inkişafında maraqlıdır. Biz Mətbuat Şurası ilə əməkdaşlıq edirik. Bu əməkdaşlıq çərçivəsində azərbaycanlı jurnalistlərə təlimlər keçiriləcək.

Avropa Şurasının Bakı ofisinin rəhbəri Zoltan Hernyes qeyd edib ki, Mətbuat Şurası yarandığı gündən bizim qurumla sıx əməkdaşlıq edir. Mətbuat Şurası bizim uğurlu tərəfdaşımızdır.

Professor Şirməmməd Hüseynov çıxışında Azərbaycan mətbuatının tarixindən danışıb. Ölkəmizdə mətbuata xüsusi dövlət qayğısının olduğunu deyən Ş.Hüseynov məhz həmin qayğının nəticəsində bu sahədə xeyli nailiyyətlərin qazanıldığını vurğulayıb. O, Mətbuat Şurasının 15 illik fəaliyyətinin təqdirəlayiq olduğunu bildirərək əminliyini ifadə edib ki, mətbuat sahəsində uğurlarımız davamlı olacaq.

Sonra Azərbaycan Mətbuat Şurasının 15 illik fəaliyyəti ilə bağlı videoçarx nümayiş olunub.

Daha sonra Azərbaycan jurnalistikasında xüsusi xidmətləri olan bir qrup şəxsə ali media mükafatı təqdim edilib.

Tədbir konsert proqramı ilə davam edib.

# Raket və artilleriya qoşunlarının təlimlərə cəlb edilən silah və hərbi texnikasına baxış keçirilib

Azərbaycan Ordusunun genişmiqyaslı təlimlərinə ümumi rəhbərliyi həyata keçirən müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti raket və artilleriya qoşunlarının təlimlərə cəlb edilən silah və hərbi texnikasına baxış keçirib və şəxsi heyətlə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müdafiə naziri döyüş heyətlərinin hazırlığını yoxlayıb və təlimlərdə döyüş tapşırıqları yerinə yetirəcək müxtəlif çaplı raket və artilleriya qurğuları, reaktiv yaylım atəş sistemi və minaatanların daha effektiv tətbiqi ilə bağlı müvafiq tapşırıqlar verib.













# Gənclər ədliyyə orqanlarına qulluğa qəbul olunub





Azərbaycanda uğurla həyata keçirilən dövlət siyasətinə uyğun olaraq, gənclərin işlə təminatı daim diqqətdə saxlanılır, bu məqsədlə ədliyyə orqanlarına qulluğa qəbulla bağlı mütəmadi müsabiqələr keçirilir. Aparılmış şəffaf seçimlər əsasında son illər ədliyyə orqanlarına böyük əksəriyyəti gənclər olan 2500-dən çox hazırlıqlı, müasir texnologiyalara bələd və mənəvi cəhətdən saf kadrlar qulluğa qəbul olunub. Onlar ədliyyənin müxtəlif sahələrində uğurla fəaliyyət göstərir və bir çoxu ali dövlət orqanında məsul vəzifələrə irəli çəkiliblər. Bununla yanaşı, gənclərdə ədliyyə sahəsində işləməyə həvəsi artırmaq, onların məşğulluğunun təmin olunmasına şərait yaratmaq məqsədilə könüllülük institutu təşviq olunaraq, son illər 250-dək gənc ədliyyə qurumlarında və məhkəmələrdə fəaliyyətə cəlb edilib.

Eyni zamanda, qulluğa qəbul üzrə müsabiqələr zamanı vətəndaşların müraciət imkanları və elektron xidmətlərin tətbiqi genişləndirilir, namizədlərin imtahanlara mükəmməl hazırlaşmalarına və yüksək nəticələrə nail olmalarına köməklik məqsədilə əvvəlcədən Ədliyyə Akademiyasında ödənişsiz hazırlıq kursları təşkil edilir. Habelə şəffaflığın tam təmin olunması üçün test imtahanları internetdə “online” rejimində canlı yayımlanır, müsabiqənin bütün mərhələləri vətəndaş cəmiyyəti nümayəndələri tərəfindən tam müşahidə olunur. Uğur qazanan namizədlər Ədliyyə Akademiyasında icbari təlimə cəlb edilir, tədrisin və təcrübi biliklərə yiyələnmənin daha keyfiyyətli təşkilinə xüsusi diqqət yetirilir.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, 100-ə yaxın hüquqşünas bu günlərdə növbəti müsabiqənin bütün mərhələlərindən keçərək peşə fəaliyyətinə buraxılıblar.

Onlar martın 14-də Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin əziz xatirəsini yad edərək məzarı önünə gül dəstələri düzüblər. Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş həmvətənlərimizin məzarları da ziyarət edilib.

Həmçinin ədliyyə orqanlarına qulluğa qəbul olunmaları ilə bağlı hüquqşünaslarla Ədliyyə Nazirliyi rəhbərliyinin görüşü keçirilib.

Tədbirdə ədliyyə naziri Fikrət Məmmədov çıxış edərək son illər respublikamızın davamlı tərəqqisinin, sabitliyin və təhlükəsizliyin təmin olunduğunu vurğulayıb, dövlətimizin gənclərin hərtərəfli inkişafına yüksək qayğısından bəhs edib. Ədliyyə və məhkəmə sistemində aparılan islahatlardan geniş söhbət açan nazir stajorlara işlərində məsuliyyətli olmağı, insanlara layiqli xidmət göstərməyi, qanunçuluq, humanizm prinsiplərinə, etik davranış qaydalarına dönmədən əməl etməyi tövsiyə edib, gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Bildirilib ki, ədliyyə orqanlarına qulluğa qəbulla bağlı bu ayın əvvəlində yeni müsabiqə elan olunub.

Çıxış edən gənclər müstəqil Azərbaycanımızın hərtərəfli tərəqqisinə və qüdrətlənməsinə sədaqətlə xidmət göstərəcəklərini vurğulayıb, onlara bu əziz bayram ərəfəsində göstərilən yüksək etimadı doğruldacaqlarına, ədliyyə işçisi adını şərəflə daşıyacaqlarına və daim uca tutacaqlarına, ölkəmizin ictimai həyatında əsl vətəndaş mövqeyindən çıxış edəcəklərinə söz veriblər.

Daha sonra təyinat almış yeni əməkdaşlar Azərbaycan Respublikasının Dövlət Bayrağı önündə təntənəli qaydada and içiblər və onlara xidməti vəsiqələr təqdim edilib.

Tədbirdə ədliyyə nazirinin müavini, Müsabiqə Komissiyasının sədri Toğrul Musayev iştirak edib.

# Raket və artilleriya qoşunlarının silah və hərbi texnikası atəş mövqelərinə çıxarılıb

Müxtəlif qoşun növlərinin iştirakı ilə həyata keçirilən Azərbaycan Ordusunun genişmiqyaslı təlimləri davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, raket və artilleriya qoşunlarının hərbi hissə və birləşmələrinin 1000-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatanlar döyüş atışları icra etmək məqsədilə ümumqoşun poliqonlarındakı müvəqqəti atəş və start mövqelərinə çıxarılıb.





# ABŞ Konqresinin Kannon binasının qarşısında Vaşinqtona səfər edən hərbi cani Bako Saakyana qarşı etiraz aksiyası keçirilib









Xəbər verildiyi kimi, özünü Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin “prezidenti” kimi təqdim edən Bako Saakyan ABŞ-ın paytaxtı Vaşinqtona səfər edib. Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin Xankəndi şəhərinin sakini olan Bako Saakyanın Ermənistan və erməni lobbisinin səyləri nəticəsində baş tutan səfəri zamanı martın 14-də ABŞ Konqresinin Kannon binasında separatçı rejimi təbliğ edən və Azərbaycan ərazilərinin işğalına dəstək qazanmaq məqsədi daşıyan tədbir keçirilib.

Ermənistanın ABŞ-dakı səfirliyi, Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin ABŞ nümayəndəliyi, Amerika Erməni Assambleyası, öz büdcəsini Birləşmiş Ştatların erməni icmasının hesabına dolduran Amerika Erməni Milli Komitəsi tərəfindən təşkil edilmiş tədbirə bir neçə ermənipərəst qanunverici dəvət edilmişdi.

Bu yığıncaqla eyni vaxtda Kannon binasının qarşısında ABŞ Azərbaycanlıları Şəbəkəsi tərəfindən təşkil olunmuş etiraz aksiyası keçirilib. Aksiyada Vaşinqton və ətraf rayonlardakı Azərbaycan icmasının üzvləri iştirak ediblər. Nümayişçilər əllərində Saakyanların, Sarkisyanların hərbi cani olmalarını təsvir edən plakatlar tutub, Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı faktları, Ermənistanın vassallığı və onun müstəqil siyasi kursunun olmaması, Xocalı soyqırımı, BMT Təhlükəsizlik Şurasının qətnamələri barədə məlumatları aksiyaya qoşulanların və ABŞ Konqresinin üzvlərinin diqqətinə çatdırıblar. Binanın qarşısından keçən və binaya daxil olan bir çox şəhər sakinləri etirazçılara yaxınlaşaraq Ermənistanın Azərbaycana qarşı təcavüzünə qarşı çıxıb, soydaşlarımızın aksiyasına dəstək olduqlarını bildiriblər.

Ermənilərin təbliğat xarakteri daşıyan tədbirinin Konqres binalarından birində keçirilməsi onun Vaşinqton şəhərinin hər hansı başqa binasında keçirilən tədbirlə müqayisədə daha əhəmiyyətli olması demək deyil. ABŞ Konqresinin 435 üzvündən hər biri Konqresin binasında hər hansı tədbir üçün otaq sifariş edə bilər. Ermənilərin tədbirinin Konqresin binalarının birində keçirilməsinin əsas səbəbi konqresmenləri şirnikləndirmək məqsədilə bu kiçik tədbirin əhəmiyyətini şişirtmək olub, habelə Ermənistanın işğal olunmuş ərazilərdəki qondarma rejiminə legitimlik qazandırması xarakteri daşıyıb.

Qeyd edək ki, erməni lobbi təşkilatları son həftə ərzində qanunvericilərə məktublar göndərib onları şirnikləndirərək bu tədbirə dəvət edirdilər. Lakin onların səyləri puç oldu. ABŞ Azərbaycanlıları Şəbəkəsi ABŞ qanunvericilərini Ermənistanın Azərbaycana qarşı təcavüzü barədə məlumatlandırmaq üçün yazılı kampaniya keçirib. Kampaniya nəticəsində ABŞ konqresmenlərinə və senatorlarına, yerli media qurumlarına və Dövlət Departamentinə ünvanlanan məktublarda Ermənistanın qeyri-müstəqil olması, Ermənistanın Azərbaycan ərazilərində yaratdığı qondarma qurumun kriminal və qeyri-legitim olması və bu ölkənin ABŞ-ın milli maraqlarına qarşı fəaliyyəti, habelə BMT-nin Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 nömrəli qətnamələri barədə məlumat verilib. Bundan əlavə, ABŞ Azərbaycanlıları Şəbəkəsi Konqresin bütün üzvlərinə Ermənistanın Azərbaycana qarşı təcavüzü barədə daha geniş məktub göndərib və qondarma rejimi Vaşinqtonda reklam edən ermənipərəst şəxslərə və qurumlara məhəl qoymamağa, Azərbaycanın ərazisində mülkü əhaliyə qarşı bir neçə qətliam törətmiş hərbi cani qrupunun bir üzvü olan Bako Saakyanın dəvətini rədd etməyə və siyasəti ABŞ-ın milli maraqlarına uyğun olmayan Ermənistanı pisləməyə çağırıb.

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 87 dəfə pozub



Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 87 dəfə pozub. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qaymaqlı, Quşçu Ayrım, Aşağı Əskipara kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Şirvanlı, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər və Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Azərbaycanın iqtisadiyyat naziri İranda səfərdədir

İqtisadiyyat naziri, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev İrana səfəri zamanı Prezident Aparatının rəhbəri Mahmud Vaezi ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan nümayəndə heyətinin İrana səfərindən məmnunluq ifadə edilib, səfərin ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin genişləndirilməsinə müsbət töhfə verəcəyi vurğulanıb, Azərbaycan-İran iqtisadi əlaqələrinə və İran Prezidentinin Azərbaycana nəzərdə tutulan səfərinə dair fikir mübadiləsi aparılıb, sənaye, kənd təsərrüfatı, ticarət, nəqliyyat-tranzit, səhiyyə və s. sahələrdə əlaqələrin genişləndirilməsi üçün böyük potensialın olduğu qeyd edilib.

Vurğulanıb ki, Azərbaycan və İran prezidentləri uğurlu xarici siyasət apararaq regionda dostluğu və mehriban qonşuluğu əsas tuturlar. Dövlət başçılarının səyləri nəticəsində Azərbaycan və İran beynəlxalq əhəmiyyətli layihələrin reallaşmasında fəal iştirak edir və bu layihələr ölkələrimizin iqtisadi inkişafına töhfə verməklə yanaşı, digər ölkələrə də fayda verəcək.

Görüşdə "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov, xarici işlər nazirinin müavini Xələf Xələfov, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov da iştirak ediblər.

* * *

İrana səfəri çərçivəsində iqtisadiyyat naziri, Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev İranın sənaye, mədən və ticarət naziri Məhəmməd Şəriyətmadəri ilə görüşüb.

Görüşdə nazir Şahin Mustafayev Azərbaycan və İran xalqlarının tarixən yaxın olduğunu, dövlət başçılarının əlaqələrin inkişafına xüsusi önəm verdiklərini vurğulayıb, son 4 ildə keçirilmiş 10 yüksək səviyyəli görüş çərçivəsində müxtəlif sahələrdə əməkdaşlığın inkişafına dair qərarların qəbul olunduğunu qeyd edib. Diqqətə çatdırılıb ki, məhz bu görüşlərin, aparılan danışıqların nəticəsidir ki, ölkələrimiz arasında qarşılıqlı münasibətlər yüksələn xətlə inkişaf edir. Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının tərkibinin geniş olması da əlaqələrimizin yüksək səviyyədə olmasından xəbər verir. Şahin Mustafayev "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafında hər iki ölkənin rolunu qeyd edərək nəqliyyat dəhlizinin Avropa ilə Asiyanı birləşdirəcəyini vurğulayıb. Azərbaycan və İranın səmərəli iqtisadi əməkdaşlığında Neftçalada avtomobil zavodunun rolunu qeyd edən iqtisadiyyat naziri ildə 10 min avtomobil istehsal etmək gücündə olacaq müəssisənin ölkələrimizin iqtisadiyyatına töhfə verəcəyini vurğulayıb. Bununla yanaşı, İranla birgə Azərbaycanda avtobus və kənd təsərrüfatı texnikası istehsal edən müəssisənin yaradıla biləcəyini, bu istiqamətdə danışıqların davam etdirildiyi bildirilib.

Nazir Şahin Mustafayev Naxçıvan Muxtar Respublikasının Azərbaycan üçün strateji əhəmiyyətini qeyd edərək buraya investisiya qoyuluşunun səmərəliliyini vurğulayıb.

İranın sənaye, mədən və ticarət naziri Məhəmməd Şəriyətmadəri 90-cı illərdə Bakıda səfərdə olduğunu xatırlayaraq ötən müddət ərzində Azərbaycanın çox dəyişdiyini və inkişaf etdiyini, ölkəmizin uğurlarının İranı sevindirdiyini vurğulayıb. Məhəmməd Şəriyətmadəri bildirib ki, İran Prezidentinin Azərbaycana səfəri zamanı dövlət başçısını müşayiət edəcək və ölkəmizin inkişafını əyani surətdə görmək imkanı olacaq. İranlı nazir, həmçinin Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının tərkibində sənaye komitəsinin yaradılmasını təklif edib, bunun müvafiq sahədə əlaqələrin inkişafında əhəmiyyətli olacağını vurğulayıb.

Qarşılıqlı maraq doğuran bir sıra məsələlərin də müzakirə edildiyi görüşdə Azərbaycanın İrandakı səfiri Bünyad Hüseynov, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov, İranın "Xodro" şirkətinin baş direktoru Haşim Yekkə Zareəd də iştirak edib.

# Dövlət Komitəsinin sədri Gəncədə vətəndaşları qəbul edib

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, martın 14-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Gəncə şəhərində bölgə vətəndaşlarını qəbul edib.

Azərbaycan Dövlət Aqrar Universitetinin əsas binasında keçirilən qəbulda komitə sədri Mübariz Qurbanlı Gəncə, Naftalan şəhərlərinin, Daşkəsən, Göygöl, Goranboy və Samux rayonlarının sakinlərinin müraciətlərinə baxıb.

Vətəndaşlar əsasən dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması, məscidlərin təmiri, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, məscidlərin dini təyinatlı kitablarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciət ediblər.

Müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmasına ehtiyac olan bir sıra məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq tapşırıqlar verilib.

*AZƏRTAC*

# Bakı "Expo 2025" üçün ən ideal namizəddir

*Azərbaycan "İnsan kapitalını inkişaf etdirək, daha yaxşı gələcək quraq" təşəbbüsü ilə bu beynəlxalq tədbirin möhtəşəm tarixini yaradacaq*



Azərbaycan beynəlxalq səviyyəli tədbirlərin keçirilməsində öz sözünü demiş ölkələr sırasındadır. Artıq respublikamızda keçirilən tədbirlər ənənə halını almaqla, dünyanın mötəbər siyasi mərkəzləri, o cümlədən BMT tərəfindən dəstəklənir. Azərbaycanın təşəbbüsü ilə keçirilən mədəniyyətlər, sivilizasiyalararası dialoq və humanitar forumlar bütün dünyada sülhə, mədəniyyətə töhfə vermək üçün mühüm tədbirlərdir. "Bakı prosesi" artıq dünyaya səs salan siyasi platformadır.

Bu forumların keçirilməsi üçün Azərbaycanın seçilməsi təsadüfi deyil. Çünki qədim və zəngin mədəniyyətə malik, müxtəlif ənənələrin, sivilizasiyaların mövcud olduğu Azərbaycan bu formatda tədbirlərin keçirilməsi üçün nümunəvi məkandır. Bunlarla yanaşı, Bakıda bir sıra digər beynəlxalq tədbirlər keçirilib. Ölkəmiz "Eurovision" mahnı müsabiqəsini, Birinci Avropa Oyunlarını, 42-ci Dünya Şahmat Olimpiadasını, "Formula-1" Bakı Qran prisini, IV İslam Həmrəyliyi Oyunlarını ən yüksək səviyyədə təşkil etməklə mükəmməl təşkilatçılıq nümunəsi ortaya qoyub.

Ötən il isə Bakının növbəti beynəlxalq tədbirə - Beynəlxalq Sərgilər Bürosunun 2025-ci ildə keçiriləcək Ümumdünya Sərgisinə ("Expo 2025") evsahibliyi etmək üçün namizədliyi irəli sürülüb. Bu münasibətlə keçən il noyabrın 14-də Parisdə təşkil olunan qəbulda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva qeyd edib ki, Bakıda keçiriləcək sərgi Beynəlxalq Sərgilər Bürosuna yeni bazarda yeni auditoriya ilə təmasa girmək imkanı verəcək, yeni bölgədə, yeni dövrdə yeni bir tarix yazmaq imkanı yaradacaq. Ümumdünya Sərgisinə evsahibliyi etmək üçün Azərbaycanın təklifini dəstəkləmək məqsədilə əsas məqamları da diqqətə çatdıran Mehriban xanım Əliyeva deyib: "Bakı sərgisi 26 illik müstəqillik dövründə Azərbaycanın əldə etdiyi nailiyyətlərin tanıdılması üçün daha bir imkan olacaqdır. Bu həmçinin bütün gənc, müstəqil ölkələr üçün çox güclü bir stimul olacaqdır. 2025-ci ildə Ümumdünya Sərgisini təşkil etmək bizim səmimi istəyimizdir. Əgər bu şərəfə layiq görüləriksə, biz bütün dünyanı Azərbaycanda və gözəl şəhərimiz olan Bakıda qürurla qarşılayacağıq".

Tarixi 1851-ci ilə gedib çıxan ümumdünya sərgisi dünyada ən böyük və ən davamlı qlobal tədbir hesab olunur. Bir neçə ay davam edən sərgidə təşkil edilmiş pavilyonlar milyonlarla insanı cəlb edir. Ölkəmizin ümumdünya sərgisində iştirakı 2000-ci ildən başlayır. Azərbaycanın "Expo" hərəkatında iştirakı son üç ildə daha da intensivləşib. Məhz Heydər Əliyev Fondunun dəstəyi və töhfələri ilə Azərbaycan bu sərgilərdə yüksək səviyyədə iştirak edib.

Bakı ilə yanaşı, Rusiyanın Yekaterinburq və Yaponiyanın Osaka şəhərlərinin də "Expo 2025" Ümumdünya Sərgisinin keçirilməsi üçün namizədliyi irəli sürülüb. Sərginin keçiriləcəyi şəhər isə bu ilin noyabrında 170 üzv ölkə tərəfindən müəyyən olunacaq. Əgər Bakı şəhəri səsvermədə qalib gələrsə, Bakının hava limanına yaxın, bütün nəqliyyat infrastrukturu ilə təmin edilmiş 200 hektarlıq məkanda böyük "Expo" kəndi salınacaq.

Bakıda 2025-ci ildə keçiriləcəyi təqdirdə, sərginin mövzusu "İnsan kapitalı"nın inkişafı olacaq. "İnsan kapitalı" bugünkü qlobal və rəqəmsal iqtisadiyyatda ən böyük vasitədir. Zəngin təcrübəyə, keyfiyyətli təhsilə və səriştəli idarəçilik qabiliyyətinə malik kadr potensialı cəmiyyətin inkişafına, əhalinin rifahının yüksəlməsinə və eyni zamanda, dövlətin dünyəvi, mədəni, tolerant və idman ölkəsi kimi nüfuzunun möhkəmlənməsinə xidmət edir.

Ortaya dəyərli məhsul çıxarmaqla cəmiyyətə fayda verə biləcək kadrlar "İnsan kapitalı"nın inkişafı deməkdir. Qeyd etməliyik ki, bu istiqamətdə Azərbaycan çətin və uzun yol keçib. Bu yol, müasir dövrün tələblərinə və çağırışlarına uyğun olaraq bu gün də davam edir. Azərbaycan müstəqillik qazandıqdan və Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldikdən sonra ölkəmiz sabitlik və davamlı inkişaf yoluna qədəm qoyub. Ümummilli liderin uğurlu siyasi kursunun müvəffəqiyyətlə davam etdirilməsi dövlətimizi yeniləşmə və müasirləşmə mərhələsinə çıxarıb. Bu mərhələdə iqtisadi-sosial, elmi-texniki və hərbi sahələr üzrə innovativ, mütərəqqi və ən son elmi yeniliklərə söykənən nailiyyətlərin əldə olunmasında və inkişafında, dünyaya və qabaqcıl beynəlxalq institutlara sürətlə inteqrasiya etmək imkanlarının yaradılmasında "insan kapitalı"nın yeri və rolu mühüm əhəmiyyət kəsb edir.

Müasir, innovativ iqtisadiyyatın formalaşdırılması, yeni biznes layihələrinin irəli sürülməsi peşəkar kadr potensialının daim möhkəmlənməsini və inkişafını zəruri edir. Burada əlbəttə, mühüm amil təhsil sistemi üzrə zəruri olan islahatlardır. İnsan kapitalının inkişafı üçün təməli şərt isə ölkədə mövcud siyasi sabitlikdir və iqtisadi inkişafdır. Fəxrlə deyə bilərik ki, Azərbaycanın son 15 ildə inkişafı və neft strategiyasının uğurla həyata keçirilməsi neft kapitalının insan kapitalına çevrilməsini uğurla təmin edib. Respublikamızda minlərlə yeni məktəbin tikintisi, xarici ölkələrdə təhsil proqramının həyata keçirilməsi, orta məktəblərdə informasiya texnologiyaları layihələrinin tətbiqi məhz bu amala xidmət edir.

Təhsil sahəsindəki islahatlar həm də akademik sektorun real təcrübi işlə sıx təmasda olmasını nəzərdə tutur. Bu o deməkdir, təhsil sistemində əldə edilən bilik və bacarıqlar özəl və dövlət sektorundakı layihələrlə uzlaşdırılmalıdır və işə götürən və götürülən arasında effektiv körpü yaranmalıdır. Bu ali təhsil müəssisələri və peşə məktəblərini yeni bitirmiş tələbələr üçün bugünkü bazarda tələb olunan iş bacarıqlarının təmin olunmasına xidmət edən addımdır. Artıq təhsil sistemində xüsusi istedadlı tələbələrdən ibarət SABAH qrupları yaradılması, müəllimlərin attestasiyası qaydalarının hazırlanması, şəffaflıq və digər bu kimi vacib islahatlar həyata keçirilib.

Təbii ki, bu sahədə peşə təhsilinin də inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi" təsdiqlənib. Bu sənəd peşə təhsili sahəsində qabaqcıl, beynəlxalq təcrübəyə əsaslanaraq yeni islahatların həyata keçirilməsinə yol açıb.

"İnsan kapitalı" yaxın gələcəkdə Azərbaycan da daxil olmaqla bütün ölkələrin ən əsas tələbat duyduğu sərvət olacaq. Bu, beynəlxalq səviyyədə tərəfdaşlarla danışıq apara biləcək, qabaqcıl, yaxşı təhsilli, müasir dünyagörüşlü və ən əsası, vətənpərvərlik hissinə malik kadrların formalaşması deməkdir. "Expo 2025" sərgisinin Bakıda keçirilməsi məhz buna görə ölkəmizə böyük xeyir verə bilər. Belə bir mötəbər sərgi çoxsaylı tanınmış beynəlxalq innovativ təşkilatların və şirkətlərin respublikamızda bir araya gəlməsinə, Azərbaycanda yeni baxışlı sahibkarlar təbəqəsinin formalaşmasına, məqsədyönlü surətdə beynəlxalq standartlara uyğun peşəkar və səriştəli kadr potensialının möhkəmlənməsinə təkan və bu sahədə həyata keçirilən dövlət siyasətinə dəstək verəcək. Bu mənada, "Expo 2025" sərgisi mühüm hadisə, təlimverici mühit xarakterli bir tədbir olacaq. Sərginin təşkilatçıları tərəfindən paytaxtımızın ən əlverişli məkan kimi qəbul ediləcəyinə inanırıq.

***Tamerlan VAHABOV, "İvy Group" şirkətinin təsisçisi, ABŞ Corctaun Universitetinin məzunu***

# 31 mart soyqırımı ermənilərin tarixən yürütdükləri soyqırımı siyasətinin ən qanlı səhifələrindəndir

Martın 14-də Ombudsman Aparatında 1918-ci il azərbaycanlıların soyqırımının 100-cü ildönümünə həsr olunan elmi-praktik konfrans keçirilib.




AZƏRTAC xəbər verir ki, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutu ilə birgə təşkil edilən konfransda əvvəlcə faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Ombudsman Elmira Süleymanova bildirib ki, erməni millətçilərinin Azərbaycan xalqına qarşı yürütdüyü soyqırımı və təcavüz siyasəti 200 illik tarixə malikdir. 1918-ci il martın 30-31-də bədnam Bakı kommunasının başçıları və şovinist ermənilər müsəlman əhaliyə qarşı tarixdə görünməmiş qırğın törədiblər. Silahlı erməni-bolşevik birləşmələrinin 31 mart və 1-2 aprel tarixlərində azərbaycanlılara qarşı törətdikləri qırğınlar kütləvi xarakter daşıyıb, erməni silahlı dəstələri günahsız insanları amansızcasına qətlə yetiriblər. Ulu öndər Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərmanda bu hadisələrə siyasi qiymət verilib və azərbaycanlıların ermənilər tərəfindən soyqırımına məruz qalması ilk dəfə rəsmi surətdə bəyan edilib.

Qeyd edilib ki, erməni millətçilərinin və onların havadarlarının azərbaycanlılara qarşı iki əsrdən artıq müddətdə məqsədyönlü şəkildə həyata keçirdikləri soyqırımı, etnik təmizləmə və deportasiya siyasətinin məqsədi soydaşlarımızı öz tarixi torpaqlarından qovmaq və bu ərazilərdə "böyük Ermənistan" dövləti yaratmaq olub. Bu qanlı faciələrin daha dəhşətlisi 1918-ci il martın 31-də azərbaycanlılara qarşı törədilən soyqırımıdır.

AMEA-nın Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı Yaqub Mahmudov qeyd edib ki, ermənilər iki əsrdən artıq müddətdə azərbaycanlılara qarşı soyqırımları, kütləvi qırğınlar, amansız cinayətlər törədiblər. 1918-ci ilin martında erməni daşnakları tərəfindən Azərbaycanın Bakı, Quba, Qarabağ, Şamaxı, Kürdəmir, Salyan, Lənkəran və başqa bölgələrində törədilən soyqırımları nəticəsində on minlərlə dinc azərbaycanlı qətlə yetirilib. 1918-ci ilin mart ayından etibarən azərbaycanlı əhali erməni millətçiləri tərəfindən yalnız milli mənsubiyyətinə görə məhv edilib, insanlar diri-diri yandırılıb, nadir tarixi abidələr, xəstəxanalar, məktəblər, məscidlər dağıdılıb. Azərbaycanlıların soyqırımı əsasən Bakı, Şamaxı, Quba, Kürdəmir və Salyan qəzalarında, Qarabağ, Zəngəzur, Naxçıvan və Lənkəranda xüsusi qəddarlıqla həyata keçirilib. Mart hadisələri zamanı Şamaxının 75 kəndi ermənilər tərəfindən tamamilə məhv edilib, 7 min nəfər öldürülüb. Erməniləri Azərbaycan ərazisinə köçürən qüvvələrin hər zaman onları müdafiə etdiyini deyən Y.Mahmudov tarixdə ermənilərə qarşı soyqırımının olmadığını, lakin ermənilər tərəfindən dəfələrlə soyqırımının törədildiyini söyləyib. Ermənilərin törətdikləri cinayətlər bütün dünya tarixi üçün silinməz ləkədir. Xocalı soyqırımı dünyanın gözü qarşısında baş verib. Lakin ona hələ də beynəlxalq səviyyədə tam qiymət verilməyib.

Tarix İnstitutunun direktoru vurğulayıb ki, Azərbaycan dövlətinin gördüyü işlər nəticəsində bu gün artıq dünya dövlətləri və beynəlxalq təşkilatlar ölkəmizin haqq işini müdafiə edir və getdikcə daha çox ölkə Ermənistanı işğalçı dövlət kimi tanıyır.

Milli Məclisin deputatı Elman Nəsirov azərbaycanlıların soyqırımı gününün tariximizə XX əsrin qanlı hadisəsi kimi yazıldığını qeyd edib. Bildirib ki, soyqırımı zamanı mütəşəkkil erməni birləşmələri tərəfindən on minlərlə günahsız soydaşımız amansızlıqla qətlə yetirilib. 31 mart soyqırımı ermənilərin tarixən yürütdükləri soyqırımı siyasətinin ən qanlı səhifələrindəndir. Bu soyqırımını ermənilər dünyaya vətəndaş müharibəsi kimi təqdim etməyə çalışırdılar. Stepan Şaumyan Moskvaya yazdığı məktubda etiraf edib ki, onlar bu cinayətləri şüurlu şəkildə törədiblər. Tarix boyu təcavüzkar siyasət yeridən, qanlı əməllərindən əl çəkməyən ermənilər havadarlarının köməyi ilə əzəli torpaqlarımızı işğal etməyi özlərinin məqsədlərinə çeviriblər.

Sonra Hərbi Prokurorluğun xüsusi istintaq şöbəsinin rəisi Emil Tağıyev azərbaycanlılara qarşı soyqırımı cinayətləri, Xarici İşlər Nazirliyinin informasiya və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Cavanşir Məmmədov 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü, AMEA-nın Tarix İnstitutunun alimləri Cəbi Bəhramov, Kamran İsmayılov, Natiq Məmmədzadə, İlqar Niftəliyev və Güntəkin Nəcəfli böyük dövlətlərin Bakı nefti uğrunda mübarizəsi və azərbaycanlıların soyqırımı, 1918-1920-ci illərdə Zəngəzur və Naxçıvan bölgəsində, Qarabağda, İrəvan Quberniyasında azərbaycanlıların soyqırımı, habelə Azərbaycan xalqına qarşı soyqırımı yeni arxiv sənədlərində mövzularında məruzələrlə çıxış ediblər.

Tədbir çərçivəsində 31 mart soyqırımı ilə bağlı kitab sərgisi nümayiş olunub.

# Beynəlxalq konfransın iştirakçıları Səngəçal neft terminalı ilə tanış olublar

ATƏT Parlament Assambleyasının İpək Yoluna Dəstək Qrupunun Bakıda keçirilən "İpək Yolu boyunca iqtisadi əməkdaşlıq və mədəni əlaqələrin inkişaf etdirilməsində parlamentlərin rolu" mövzusunda beynəlxalq konfransının iştirakçıları martın 14-də Səngəçal neft terminalı və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, qonaqlara Azərbaycanın "Şahdəniz-2" yatağından hasil olunacaq qazın Avropaya nəqlini nəzərdə tutan "Cənub qaz dəhlizi", terminal və Xəzər Enerji Mərkəzi, həmçinin Azərbaycanın neft və qaz hasilatının tarixi barədə ətraflı məlumat verilib.

Konfrans iştirakçıları Səngəçal terminalının ərazisi ilə də tanış olublar. Məlumat verilib ki, Səngəçal terminalı Azərbaycanın neft və qaz sənayesinin döyünən ürəyi hesab edilir. Terminal Azərbaycanın Xəzər dənizindəki yataqlarından hasil edilən xam neftin və qazın qəbul edildiyi, emal olunduğu, saxlandığı və ixrac edildiyi məkandır. Səngəçal terminalı öz neft və qaz ixrac sistemləri ilə birlikdə Azərbaycanı Avropa ilə Asiyanın kəsişməsində mühüm bir qovuşuğuna çevirir.

Sonra qonaqlar Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksi ilə tanış olublar. Qeyd edilib ki, Azərbaycanın regionun mühüm nəqliyyat və logistika mərkəzinə çevrilməsi siyasətinin tərkib hissəsi olan, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin qovuşuğunda yerləşən yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi ölkənin tranzit imkanlarının genişləndirilməsində həlledici və mühüm rola malikdir. Layihənin həyata keçirilməsinə Prezident İlham Əliyevin 2007-ci ildə imzaladığı sərəncamla başlanılıb. Yeni limanın məhz Ələt qəsəbəsində inşası təsadüfi deyil. Bu ərazi Şimal-Cənub və Şərq-Qərb dəhlizlərinin Azərbaycan seqmentləri olan avtomobil və dəmir yolu xətlərinin kəsişməsində yerləşir və yeni limanın inşası ilə buraya su magistrallarının da əlavə edilməsi, mahiyyət etibarilə bu ərazinin mühüm nəqliyyat qovşağına və yeni geniş logistik məkana çevrilməsinə imkan yaradır.

# "Muğam aləmi" V Beynəlxalq Muğam Festivalı başa çatıb

Martın 14-də Azərbaycan Dövlət Akademik Filarmoniyasında "Muğam aləmi" V Beynəlxalq Muğam Festivalına yekun vurulub.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondu, Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Bəstəkarlar İttifaqı və Azərbaycan Milli Konservatoriyasının birgə dəstəyi ilə reallaşan və bir həftə davam edən festivala 15-dən çox ölkə qatılıb.

Festivalın bədii rəhbəri, xalq artisti, UNESCO-nun "Sülh artisti", Bəstəkarlar İttifaqının sədri, professor Firəngiz Əlizadə Azərbaycan muğamının tarixi keçmişindən və müasir inkişaf səviyyəsindən söz açaraq bu irsin qorunması və təbliğində festivalın müstəsna rol oynadığını söyləyib. Bildirib ki, "Muğam aləmi" V Beynəlxalq Muğam Festivalı ölkəmizdə artıq ənənəyə çevrilmiş böyük musiqi tədbirlərinin növbəti uğurlu hadisəsidir.

Xalq artisti muğam sənətinin dərin köklərdən, tarixi sınaqlardan uğurla keçərək müasir dövrdə tamamilə yeni bir səviyyəyə qalxmasından danışıb. Bunun Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın danılmaz əməyinin nəticəsində mümkün olduğunu xüsusilə qeyd edib: "Milli-mədəni irsimizin bir sıra qiymətli nümunələrinin, o cümlədən Azərbaycan muğamının, aşıq, xalçaçılıq, tar ifaçılığı, kəlağayı sənətinin və Novruz bayramının UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilməsi bizim mədəni irsimizə, onun qorunmasına dünya miqyasında göstərilən diqqət və qayğının təzahürüdür".

Festival çərçivəsində Azərbaycan Milli Konservatoriyasında instrumental və vokal bölmələri üzrə beynəlxalq muğam müsabiqəsinin təşkil edildiyi, müsabiqə iştirakçılarının Azərbaycan, Polşa, Türkiyə, İran və Tacikistandan olan tanınmış musiqi mədəniyyətinin görkəmli nümayəndələri tərəfindən qiymətləndirildiyi, konservatoriyada, həmçinin musiqi gecələrinin keçirildiyi diqqətə çatdırılıb.

Qeyd edilib ki, Beynəlxalq Muğam Mərkəzində keçirilən konsertlərdə "Rast", "Şur", "Segah", "Çahargah", "Bayatı-şiraz", "Şüştər" və "Hümayun" muğamları istedadlı ifaçılar tərəfindən tamaşaçılara təqdim olunub. Festival günlərində Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik, Dövlət Xalq Çalğı Alətləri, Qara Qarayev adına Azərbaycan Dövlət Kamera orkestrlərinin, eləcə də Azərbaycan Dövlət Rəqs Ansamblının, Dövlət Xor Kapellasının, Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının, "Cəngi" etno-caz qrupunun çıxışları da maraqla qarşılanıb.

Firəngiz Əlizadə deyib ki, bir həftə ərzində qonaqlar Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində Üzeyir Hacıbəylinin "Koroğlu" operasını, Qara Qarayevin "Yeddi gözəl" baletini, Müslüm Maqomayevin "Şah İsmayıl" operasını, Dövlət Musiqili Teatrında "O olmasın, bu olsun" musiqili komediyasını, Marionet Teatrında Üzeyir Hacıbəylinin eyniadlı əsəri əsasında "Leyli və Məcnun" marionet tamaşasını izləmək imkanı qazanıblar.

Xalq artisti festival çərçivəsində Azərbaycan Milli Elmlər Akademiyasında reallaşan "Azərbaycanda muğam elmi: reallıqlar və perspektivlər" mövzusunda beynəlxalq elmi simpoziumu da yüksək qiymətləndirib.

Sonra beynəlxalq muğam müsabiqəsinin qalibləri mükafatlandırılıb.

Solo-muğam ifaçılığı üzrə azərbaycanlı xanəndə Elsevər Muradov və özbəkistanlı ifaçı İlyos Arabov birinci yerə layiq görülüblər. Tacikistan təmsilçisi Sardor Soliyev və azərbaycanlı Pərviz Qasımov ikinci yeri tutublar.

İnstrumental muğam ifaçılığı üzrə isə Azərbaycan musiqiçisi Nurlan Cəbizadə birinci, Aria Mohafez (İran) və Elnur Mikayılov (Azərbaycan) ikinci, Otajon Akramov və Azamat Ergaşev (Özbəkistan) üçüncü yerlərə layiq görülüblər.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, festivalın bədii rəhbəri, xalq artisti, Azərbaycan Bəstəkarlar İttifaqının sədri Firəngiz Əlizadə və beynəlxalq muğam müsabiqəsinin münsiflər heyətinin sədri, Azərbaycan Milli Konservatoriyasının rektoru, xalq artisti Siyavuş Kərimi qaliblərə diplom və pul mükafatı təqdim ediblər.

Müsabiqədə iştirak edən İsrail ifaçısı Noam Dayan, Misir təmsilçisi Omer Abdo və Azərbaycan musiqiçisi Arifə İmanovaya Mədəniyyət və Turizm Nazirliyinin təsis etdiyi mükafatlar verilib.

Bütün qalibləri təbrik edən Əbülfəs Qarayev artıq ənənəyə çevrilən bu festivalın keçirilməsinə göstərdiyi dəstəyə görə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya minnətdarlığını bildirib. Qeyd edib ki, münsiflər tərəfindən seçilən ən layiqlilər muğam sənətinin daha böyük coğrafiyada təbliğinə öz töhfələrini verəcəklər.

Nazir deyib: "Bu festival artıq 3 ildən bir keçiriləcək və biz indidən növbəti festivala hazırlaşmalıyıq".

Sonra bədii rəhbər və baş dirijor Ağaverdi Paşayevin rəhbərliyi ilə Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri və muğam müsabiqəsinin qalibləri çıxış ediblər.

Bağlanış mərasimində Azərbaycan və Qazaxıstan musiqiçilərinin Novruz hədiyyəsi kimi təqdim etdikləri "Sarı gəlin" xalq mahnısı gecəyə xüsusi rəng qatıb.

# 25 ölkə, 102 gimnast, 10 dəst medal...



## Bu gün Bakıda idman gimnastikası üzrə Dünya kubokuna start verilir

*Əvvəli 1-ci səh.*

Belə mötəbər turnir ilk dəfə idi ki, Azərbaycanda təşkil olunurdu. Bu, Azərbaycan gimnastikasının milli müstəqilliyin bərpasından bəri əldə etdiyi ilk böyük uğur oldu və bədii gimnastikamızın tarixinə parlaq səhifə kimi yazıldı.

Sonrakı illərdə də Azərbaycan bir sıra mötəbər beynəlxalq turnirlərə evsahibliyi etdi:

*2004-cü ildə 22 ölkədən 47 gimnastın iştirakı ilə bədii gimnastika üzrə Dünya kubokunun mərhələ yarışı;*

*2005-ci ildə Dünya kubokunda A kateqoriyasına malik AGF Kuboku uğrunda yarış;*

*2005-ci ildə 47 ölkədən çoxlu sayda idmançının iştirakı ilə bədii gimnastika üzrə 27-ci dünya çempionatı;*

*2005-ci ildə dünya çempionatı;*

*2007-ci ildə Avropa çempionatı;*

*2009-cu ildə 32 ölkədən 186 gimnastın iştirakı ilə bədii gimnastika üzrə 25-ci Avropa çempionatı;*

*2014-cü ildə 30 ölkədən 250-dən çox gimnastın iştirakı ilə 30-cu Avropa çempionatı və s.*

Yuxarıda sadaladıqlarımız onu göstərir ki, ötən 15 il ərzində gimnastikanın bütün növlərinin inkişafı, maddi-texniki bazasının gücləndirilməsi, bu idman növünün kütləviləşməsi istiqamətində görülən işlər bəhrəsini verməkdədir.

Bunun 2015-ci ildə ilk dəfə keçirilən Avropa Oyunlarında bir daha şahidi olduq. İdman gimnastikası, bədii gimnastika və batut üzərindən tullanma yarışları, eyni zamanda iki yeni qeyri-olimpiya növü olan aerobika və akrobatika da 14-21 iyun tarixlərində I Avropa Oyunlarında nümayiş olundu. Bu yarışlarda gimnastlarımız 7 medal qazanaraq böyük uğura imza atdılar.

Ötən il IV İslam Həmrəyliyi Oyunlarında idman gimnastlarımız 12 medal (5 qızıl, 5 gümüş, 2 bürünc), bədii gimnastika üzrə təmsilçilərimiz isə ümumilikdə 8 medal (4 qızıl, 2 gümüş, 2 bürünc), qazanaraq tarixi nəticə göstəriblər.

### Dünya kubokunda 6 gimnastımız yarışacaq

Ölkəmizi Dünya kubokunda IV İslam Həmrəyliyi Oyunlarında komanda hesabında gümüş, fərdi çıxışlarda isə müxtəlif əyarlı medallar qazanan Murad Ağarzayev, Timur Bayramov və Bense Talas təmsil edəcəklər. Qadın gimnastlarımızdan isə İslamiadada komanda hesabında qızıl, şəxsi hesabda isə bir sıra medallar qazanan Yuliya İnşina və Marina Nekrasova, o cümlədən uzun müalicədən sonra yenidən idmana qayıdan Mariya Smirnova mübarizə aparacaqlar.

### Yeni hədəflər, debüt çıxışlar və iddialı açıqlamalar

Bakıda təşkil ediləcək Dünya kubokunda iştirakçılar arasında Çili və Taypey (Çin) yığma komandalarının üzvləri məhz Milli Gimnastika Arenasında debüt çıxışlarını edəcəklər. Çilidən bir, Taypeydən isə üç gimnast ilk dəfə Bakıda məharətlərini göstərəcək. Heyətlərinin genişliyinə görə iştirakçı ölkələrin siyahısına Sloveniya, Yunanıstan və Türkiyə milli komandaları liderlik edirlər.

Bakı tamaşaçısı gimnastların doğma arenasında yenidən bir çox tanınmış idmançıların çıxışlarını izləmək imkanı əldə edəcək. Bakıda keçirilən turnirlərin artıq daimi favoriti sayılan, halqalarla hərəkətlərdə Olimpiya Oyunlarının qızıl mükafatçısı, ikiqat dünya və üçqat Avropa çempionu yunanıstanlı Elefterios Petrunias bu dəfə də arenada möhtəşəm çıxışları ilə izləyiciləri valeh edəcək.

Qadın idman gimnastları arasında isə Olimpiya çempionu, dəfələrlə dünya və qitə yarışlarının mükafatçısı olmuş özbəkistanlı Oksana Çusovitina da bu dəfə yeni hədəfləri üçün Bakını seçib.

Bundan başqa, idman gimnastikası üzrə sonuncu dünya çempionatında müxtəlif hündürlüklü qollarda qızıl medal qazanan Fan Yilin (Çin), kişilərin yarışında turnikdə bürünc medal əldə etmiş Bart Deurlo (Niderland), həmçinin 2015-ci ildə paralel qollarda dünya çempionu You Hao (Çin) Bakı turnirində ustalıqlarını göstərəcəklər.

Kişi idman gimnastikası üzrə Qazaxıstan milli komandası Bakıda medallar qazanmağa iddialıdır. Komandanın baş məşqçisi Aleksandr Kim deyib ki, Bakıdakı yarışlara 3 gimnast qatılacaq: "Onlardan biri Melburnda keçirilmiş Dünya kuboku mərhələsinin qalibidir. Bakıdakı turnir cari ildə ikinci yarışımızdır. Biz artıq Melburnda Dünya kubokunda iştirak etmişik. Orada gimnastımız Nəriman Qurbanov birinci yeri tutub. Ondan başqa Bakı turnirində daha iki gimnast - Yerbol Cantıkov və Daniil Baturin iştirak edəcəklər. Ötən il burada Dünya kubokunda olmuşam. Qeyd etmək istəyirəm ki, Azərbaycanda yarışların təşkilatçılığı hər zaman yüksək səviyyədə olur. Bu il biz Bakıya təlim-məşq toplanışına gəlməyə qərar verdik. Onu da deyim ki, Milli Gimnastika Arenasında yaradılan şərait əladır".

Səudiyyə Ərəbistanı milli komandasının baş məşqçisi Fəth Kamal Nida isə deyib ki, Dünya kuboku yarışlarında gənc idmançılarla təmsil olunacaqlar: "Mən 15 gün əvvəl işə başlamışam və ümidvaram, bu turnirdə uğurla çıxış edəcəyik. Biz buraya daha erkən gəldik ki, mühitə və alətlərə uyğunlaşa bilək. Bu, gənc idmançılarımız üçün çox vacibdir. Çünki onların bu cür iri turnirlərdə iştirak təcrübəsi yoxdur. Yarışlara gəldikdə qeyd edim ki, çox gərgin mübarizənin şahidi olacağıq. Burada iştirak edən hər bir idmançı ən yüksək nailiyyəti hədəfləyir".

Bu günlərdə dünyada milyonlarla insan Bakıda gimnastlar tərəfindən nümayiş olunacaq yüksək səviyyəli çıxışları heyranlıqla izləyəcək. İnanırıq ki, gimnastikanın inkişafı üçün yaradılan şərait bu idman növündə uğurlarımızın artmasına şərait yaradacaq, idmançılarımız dünya kubokunda və eyni zamanda qarşıdakı turnirlərdə yeni-yeni zirvələr fəth edəcəklər.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində növbəti məlumat mübadiləsi təşkil olunub

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində "Azərbaycanda İnnovasiyanın və Məşğulluğun İnkişafı" layihəsinin icrası işlərinə və "Dövlət məşğulluq xidmətlərinin modernləşdirilməsində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə dəstək" tvinninq layihəsi çərçivəsində təlim səfərlərinin nəticələrinə dair "Məlumat mübadiləsi saatı" keçirilib.



AZƏRTAC xəbər verir ki, əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov tədbiri giriş sözü ilə açaraq əmək resurslarının səmərəli məşğulluğuna şərait yaradılmasının sosial-iqtisadi inkişaf strategiyasının əsas prioritetlərindən olduğunu bildirib: "Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən də aktiv məşğulluq tədbirləri ildən-ilə gücləndirilir. Həmin tədbirlərin davamı olaraq bu ilin yanvar-fevral aylarında nazirliyin məşğulluq orqanlarının xətti ilə 27,5 min nəfər işsiz və işaxtaran münasib işlə təmin olunub, 473 nəfər üçün peşə hazırlığı və əlavə təhsil kursları təşkil olunub. Həmçinin son iki ayda 28,4 min nəfər gənc əmək bazarının tələblərinə uyğun düzgün peşə və ixtisas seçimlərinə köməklik göstərilməsi üçün peşəyönümü tədbirlərinə cəlb edilib".

Qeyd olunub ki, aztəminatlı ailələrin yoxsulluqdan çıxışına və kiçik ailə biznesinə keçidinə imkan verən özünüməşğulluq proqramının icrası işləri də bu il daha geniş müstəvidə davam etdirilir. Aktiv məşğulluq tədbirlərinin təşkilində beynəlxalq əməkdaşlıq müstəvisində icra olunan layihələrin də əhəmiyyətini qeyd edən nazir deyib: "Gənclərin əmək bazarına inteqrasiyasında onların müasir iş axtarışı bacarıqlarına yiyələnməməri vacib amillərdən biridir. BMT İnkişaf Proqramı ilə birgə icra etdiyimiz "Azərbaycanda İnnovasiyanın və Məşğulluğun İnkişafı" layihəsi bu sahədə fəal dəstək rolu oynayır. Layihə ilk dəfə işaxtaran ali təhsilli gənclərə qabaqcıl beynəlxalq təcrübədən irəli gələn SYSLAB (Yenilik və Məşğulluq üzrə Sistem Laboratoriyası) metodologiyası üzrə sınanmış iş axtarışı bacarıqlarının aşılanması məqsədinə xidmət edir".

Ümumilikdə gənclərin məşğulluğunun təminatının diqqətdə saxlandığını qeyd edən nazir ötən il və cari ilin iki ayında nazirliyin xətti ilə münasib işlərlə təmin olunanlardan 33,3 faizinin, peşə hazırlığı təşkil olunanlardan 60 faizə yaxın hissəsinin gənclər olduğunu bildirib.

Nazir bildirib ki, son illərdə aparılan islahatların əsas hədəflərindən biri də dövlət məşğulluq xidmətlərinin fəaliyyətinin təkmilləşdirilməsi, həmin xidmətlərin müasir dünya praktikasında mövcud olan modern üsullar əsasında qurulmaqla səmərəliliyinin və əmək bazarında rolunun artırılmasıdır.

Nazir tədbirin həm "Azərbaycanda İnnovasiyanın və Məşğulluğun İnkişafı" layihəsi üzrə aparılan işlər və gələcək hədəflər, həm də qeyd olunan tvinninq layihəsi üzrə təlim səfərlərinin yekunları, səfərlər zamanı əldə olunan təcrübələr barədə məlumat mübadiləsinə imkan verdiyini qeyd edib.

Tədbirdə BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisinin müavini Alessandro Frakasetti "Azərbaycanda İnnovasiyanın və Məşğulluğun İnkişafı" layihəsi üzrə görülən işlərə dair təqdimatla çıxış edib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Məşğulluq siyasəti və demoqrafiya şöbəsinin müdir müavini Rəna Abdullayeva nazirliyin nümayəndələrinin "Dövlət məşğulluq xidmətlərinin modernləşdirilməsində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə dəstək" tvinninq layihəsi çərçivəsində Litva, Avstriya və İsveçə təlim səfərlərinin nəticələri, həmin ölkələrdə həyata keçirilən məşğulluq siyasəti və xidmətləri barədə məlumat verib.

Təqdim olunan məlumatlar əsasında müzakirələr aparılıb.



# 11 APREL PREZİDENT SEÇKİLƏRİ GÜNÜDÜR



## Kürdəmirdə seçkilərə hazırlıq işləri başa çatıb

Hazırda respublikamızın hər yerində 11 aprel 2018-ci il tarixdə keçiriləcək prezident seçkilərinə ciddi hazırlıq görülür.

Hər bir seçici təxminən bir ay sonra baş tutacaq siyasi kampaniyada səsini verərək öz layiqli namizədini seçəcəyi anı gözləyir. Dövlət müstəqilliyimizin bərpasından ötən 26 il ərzində artıq Azərbaycan vətəndaşlarında birmənalı şəkildə seçki mədəniyyəti formalaşıb. Hər kəs azad və demokratik şəkildə Milli Məclis, bələdiyyə, prezident seçkilərində öz seçimini etmək hüququna malikdir.

Mərkəzi Aran bölgəsinin istər ərazisinə, istərsə də əhali sayına görə ən böyük rayonlarından olan Kürdəmirdə də prezident seçkilərinə hazırlıq işləri demək olar ki, başa çatdırılıb. Rayon ərazisində fəaliyyət göstərən dairə və məntəqələr seçkilərə tam hazır vəziyyətə gətirilib.

Rayonda bir daimi, iki müştərək dairə seçki komissiyası (DSK) fəaliyyət göstərir. 57 saylı Kürdəmir daimi, 58 saylı Hacıqabul-Kürdəmir və 65 saylı Saatlı-Sabirabad-Kürdəmir seçki dairələri hüdudlarında rayon ərazisində fəaliyyət göstərən məntəqə seçki komissiyalarının sayı 73 ədəddir. Seçici sayı isə 63 min 238 nəfərdir. Dairələrdə siyahıların dədiqləşdirilməsi istiqamətində də işlər davam etdirilir.



Seçkiyə hazırlığın səviyyəsini yüksəltmək üçün məntəqə sədrləri ilə maarifləndirmə kursları keçirilib. Hazırda müşahidəçilərin qeydiyyatı aparılır. Yaxın günlərdə məntəqə seçki komissiyalarının sədrləri və üzvləri üçün 3 günlük maarifləndirmə kurslarının keçirilməsi nəzərdə tutulur. Bundan başqa, rayon ərazisindəki 12 seçki məntəqəsində şəffaflığın təmin edilməsi məqsədilə VEB - kameralar quraşdırılıb. Bütün məntəqələr telefonlarla və digər lazımi avadanlıqlarla tam təmin olunub.

Məntəqələrdəki real vəziyyətlə yerində tanış olmaq üçün Nizami küçəsi 4 ünvanında, 1 saylı tam orta məktəbdə təşkil olunmuş 1 saylı məntəqə seçki komissiyasında (MnSK) olduq. İlk baxışdan burada hazırlıq tədbirlərinin lazımi səviyyədə olması diqqəti çəkir. Məntəqə seçki komissiyasının sədri Vüqar Nəsirov bildirdi ki, məntəqə seçkilər üçün hazır vəziyyətə gətirilib. VEB kamera və telefonlar quraşdırılıb. Lazımi avadanlıqlarla təmin edilib. Məntəqədə 1280 seçicinin səs verməsi nəzərdə tutulub. Hazırda burada seçki siyahılarının, seçicilərin ünvanlarının dəqiqləşdirilməsi işləri davam etdirilir.

Komissiyanın sədri bildirdi ki, hazırda seçicilərlə maarifləndirmə işləri aparılır. Məntəqə tərkibində ilk dəfə səs verənlər, yaşlı seçicilər və xəstələr müəyyənləşdirilib. Ətrafda çağırışçı şüarlar yerləşdirilib və bildirişlərin yazılması üçün hazırlıq işlərinə başlanılıb.

Məntəqə seçki komissiyasının tərkibində YAP, Sosial Rifah, Ana Vətən partiyaları və bitərəflərin təmsilçiləri iştirak edirlər. Bitərəflərdən Nazilə Bünyatova bildirdi ki, indiyədək komissiya üzvü kimi bir neçə seçkidə iştirak edib. Hər dəfə də xeyli irəliləyiş və təkmilləşmənin şahidi olub. Bu dəfə də seçkinin ən yüksək səviyyədə və seçicilərin mütəşəkkilliyi şəraitində keçiriləcəyinə inanır.

Nəzrin Məcidova isə Sosial Rifah Partiyasını təmsil edir, MnSK-nın katibidir. Bir neçə dəfə bu məntəqədə seçki prosesində iştirak edib və heç bir problemlə rastlaşmayıb. Şübhə etmir ki, budəfəki seçki keyfiyyət baxımından əvvəlkilərdən daha yüksək olacaq. Bu fikri deməyə əsas verən isə indiyədək keçirilən seçkilər sayəsində qazanılan təcrübə və müvafiq istiqamətdə mövcud qanunvericilik bazasının daha da təkmilləşdirilməsidir.

***Əli SƏLİMOV,***
***"Azərbaycan"***

# Məntəqə seçki komissiyalarının üzvləri üçün treninqlər keçirilir

Bu il aprelin 11-də keçiriləcək Azərbaycan Respublikası Prezidentinin seçkilərinə hazırlıqla əlaqədar martın 12-dən başlayaraq muxtar respublikada fəaliyyət göstərən seçki dairələrinin dairə seçki komissiyalarında məntəqə seçki komissiyalarının üzvləri üçün seminar-treninqlər təşkil olunub.

4 saylı Naxçıvan şəhər seçki dairəsi dairə seçki komissiyasının iclas zalında keçirilən növbəti seminar-treninqdə dairə seçki komissiyasının sədri Cahangir Seyidov "Seçki məntəqələrinin səsverməyə hazırlanması" mövzusunda çıxış edib. Bildirib ki, seçki məntəqələrində səsvermə kabinələri və müvafiq məlumat lövhələri düzəldilməli, səsvermə qaydasına dair təlimat plakatları divara vurulmalı, səsvermə üçün zəruri olan material və avadanlıqlar yerləşdirilməlidir.

Səsvermə prosesi haqqında məlumat verən dairə seçki komissiyasının katibi Ramal Salmanov qeyd edib ki, məntəqə seçki komissiyasının sədri komissiya üzvləri arasında iş bölgüsü apararkən qanunvericiliyin tələblərini gözləməlidir. Səsvermənin başlandığı elan olunduqdan sonra məntəqə seçki komissiyasının bir üzvü seçki məntəqəsinin girişində dayanaraq məntəqəyə daxil olan vətəndaşların seçici vəsiqələrini, şəxsiyyət vəsiqələrini və ya şəxsiyyəti təsdiq edən digər sənədləri, onun sol əlinin baş barmağının dırnaq və dərisinin bir hissəsinin əvvəlcə xüsusi maye ilə işarələndiyini müəyyən etmək üçün ultrabənövşəyi lampadan istifadə etməklə yoxlayır və içəri daxil olmağa icazə verir. Bu cür işarələnmə müəyyən edilərsə, seçiciyə seçki bülleteni verilmir.

Çıxışda seçki bülletenini sərbəst almaq imkanına malik olmayan seçicilərin məntəqə seçki komissiyasının üzvləri və müşahidəçilər istisna olmaqla, başqa şəxslərin köməyindən istifadəsinin hansı hallarda mümkünlüyü haqqında da ətraflı bəhs olunub.

Ramal Salmanov səsvermə prosesindən danışarkən iki mühüm məsələ - qeydiyyatdançıxma vəsiqələri və daşınan seçki qutusu vasitəsilə səs vermək hüququ barədə də məlumat verib.

Dairə seçki komissiyasının baş məsləhətçisi Nail Həsənov səslərin hesablanması və protokolun doldurulmasının mərhələləri haqqında komissiya üzvlərini ətraflı məlumatlandırıb.

Seminar-treninqlər Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" əsasında keçirilib.

* * *

Respublikamızın bütün bölgələrində olduğu kimi, muxtar respublikada da aprelin 11-də keçiriləcək prezident seçkilərinə hazırlıqla bağlı bütün texniki-təşkilati tədbirlər yüksək səviyyədə başa çatıb. Bu tədbirlərin davamı kimi, 2 saylı Şərur seçki dairəsi dairə seçki komissiyasının əhatə etdiyi məntəqə seçki komissiyalarının sədrləri, katibləri və üzvləri üçün treninqlər keçirilir.

Treninqlərdə müxtəlif metodiki və əyani vəsaitlərdən istifadə edilməklə iştirakçılara təqdimat bacarıqları, seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə prosesi, səsvermə günü müstəsna hallar, səslərin sayılması və protokolların doldurulması da daxil olmaqla, bütün prosedurlar barədə müfəssəl məlumat verilib. Həmçinin məntəqə seçki komissiyalarının rolu və vəzifələri, seçki bülletenlərinin təsnifatı, yekun protokolunun doldurulması və digər məsələlərlə bağlı qanunvericilikdə nəzərdə tutulmuş vəzifələr izah olunub.

2 saylı dairə seçki komissiyasının sədri İbrahim Abbasov seçkilərə hazırlığın vəziyyəti barədə danışaraq qeyd edib ki, dairə seçki komissiyası öz işini Azərbaycan Respublikasının Seçki Məcəlləsinə və Mərkəzi Seçki Komissiyasının müvafiq qərarlarına uyğun qurub.

Məlumat verilib ki, 2 saylı Şərur seçki dairəsi dairə seçki komissiyası 53 məntəqəni əhatə edir. Məntəqələr zəruri ədəbiyyatlarla, seçkilərə aid dövri nəşrlərlə təmin edilib, seçici siyahılarının dəqiqləşdirilməsi xüsusi diqqət mərkəzində olub. Dairə seçki komissiyasının əhatə etdiyi məntəqələrdə seçki qanunvericiliyinə uyğun olaraq tərtib olunmuş iş planı əsasında tədbirlər davam etdirilir. Bunlardan biri də aşağı seçki komissiyaları üzvlərinin peşəkarlığının artırılması məqsədi daşıyan treninqlərdir.

2 saylı Şərur seçki dairəsi dairə seçki komissiyasının martın 12-dən təşkil etdiyi treninqlər 3 gün davam edəcək. Treninqlərdə informasiya texnologiyalarının imkanlarından istifadə edilməklə tədbir iştirakçılarının vəzifələrini əyani şəkildə göstərən slayd nümayiş olunur.

* * *

Prezident seçkilərinə hazırlıq çərçivəsində aşağı seçki komissiyaları üçün martın 12-dən başlanan maarifləndirici treninq 105 saylı Tovuz seçki dairəsində də yüksək səviyyədə aparılıb.

Treninqlər günün birinci və ikinci yarısında keçirilməklə hər gün 12 məntəqənin üzvləri üçün dairə seçki komissiyasının inzibati binasının iclas zalında təşkil olunub.

Martın 14-də keçirilən treninqdə 105 saylı Tovuz seçki dairəsi dairə seçki komissiyasının sədri Mahir Həsənov Mərkəzi Seçki Komissiyasının təlimatı və tövsiyəsi əsasında təşkil edilən treninqlərin əhəmiyyətindən danışıb. Qeyd olunub ki, dairə və məntəqə seçki komissiyaları üzvlərinin peşəkarlıq səviyyəsinin artırılması, seçkilər sahəsində onların bilik, bacarıq və vərdişlərinin daha da təkmilləşdirilməsi məqsədilə Mərkəzi Seçki Komissiyasının treninq qrupu tərəfindən yerlərdə keçirilən treninqlərdə iştirakçılar seçki prosesi barədə məlumatlandırılırlar. Komissiya üzvlərinə məntəqə seçki komissiyalarının hüquq və vəzifələri, seçkilərdə aşkarlıq, seçki prosesinin aparılma qaydaları, seçki nəticələrinin rəsmiləşdirilməsi mövzuları Seçki Məcəlləsi əsasında ətraflı izah olunub.

105 saylı Tovuz seçki dairəsi dairə seçki komissiyasının treninq qrupunun üzvləri Rafiq Əliyev və Arzuman Əhmədov çıxış edərək prezident seçkilərinə hazırlıq, seçkilərin keçirilməsi, səslərin hesablanması prosesi və səsvermənin nəticələrinin rəsmiləşdirilməsi işində məntəqə seçki komissiyalarının üzvlərinin vəzifələri və fəaliyyətlərinin təşkili məsələlərindən, aşağı seçki komissiyaları tərəfindən seçki hüququnun qorunması mexanizmlərindən danışıblar.

Treninqlər zamanı hər bir məntəqə seçki komissiyası üzvünə "Seçki günü üçün yaddaş" kitabçası, səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər sənəd nümunələri təqdim edilib.

Dairə seçki komissiyasının sədri Mahir Həsənov bildirib ki, aprelin 11-də keçiriləcək prezident seçkilərinə hazırlıq işləri uğurla aparılır. Məntəqələrdə seçkilərin şəffaf və demokratik keçirilməsi, komissiya üzvlərinin normal fəaliyyəti üçün lazımi şərait yaradılıb. 46 min 170 seçicisi olan dairə seçki komissiyasının ərazisində 40 seçki məntəqəsi fəaliyyət göstərir. Seçicilərdən 109 nəfəri ilk dəfə səs verəcək gənclər, 8 nəfəri yaşı 100-dən yuxarı olan insanlardır. Məntəqələr lazımi texniki avadanlıqla və məlumat kitabçaları ilə tam təchiz edilib.

***AZƏRTAC***

# Sumqayıtda "Hamı seçkilərə" mövzusunda seminar keçirilib



Sumqayıt Gənclər Evində 11 aprel 2018-ci il tarixində keçiriləcək Azərbaycan Respublikası Prezidentinin seçkilərində gənclərin maarifləndirilməsi, fəallığının və seçki prosesinə marağın artırılması məqsədi ilə təlim-seminar keçirilib.

Sumqayıt Şəhər Gənclər və İdman Baş idarəsinin rəis əvəzi Mübariz Bəşirov qeyd etdi ki, gənclər hər bir dövlətin gələcəyidir. Sumqayıt gəncləri də dövlətimizin qayğısı ilə əhatə olunmuşlar. Əminik ki, onlar həmişə olduğu kimi, bu dəfə də mütəşəkkil şəkildə səsvermədə iştirak edəcəklər.

41 saylı Sumqayıt I dairə seçki komissiyasının sədri Vaqif Məmmədov gənclərin ölkənin ictimai-siyasi, mədəni həyatında mühüm yer tutduğunu, seçkilərdə fəal iştirakının vacibliyini vurğuladı.

Seminarın təlimçisi Ramil Süleymanov seçki qanunvericiliyi, səsvermə prosesi, hüquqi əsasları və tənzimlənməsi məsələləri haqqında ətraflı məlumat verdi. İştirakçıların sualları cavablandırıldı, onlara maarifləndirici xarakterli bukletlər paylandı.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

Aşıq Şəmşir - 125

# Zərli tac kamallı başa yaraşır

## Ağdabanlı Qurbanın sənət zirvəsindən başlanan yolun ustad davamçısı

Kəlbəcərin saz-söz diyarı olması dəfələrlə təsdiqlənib. Ağdabanlı şair Qurbandan və Dədə Şəmşirin sənət zirvəsindən başlanan yol bu gün də uğurla davam etdirilir, yeni nəfəslə, müxtəlif formalı şeir nümunələri ilə...



Kəlbəcər adı çəkiləndə öncə göz önünə əzəmətli dağlar və onların qoynunda yazıb-yaradanlardan biri olan Dədə Şəmşir gəlir. Çünki XIX əsrin sonu, XX əsrin əvvəllərində formalaşan Kəlbəcər ədəbi mühiti Dədə Şəmşirlə yaşıddır.

Qocayev Şəmşir Qurban oğlu 1893-cü il martın 15-də Kəlbəcər rayonunun Dəmirçidam kəndində Qurban Məşədi Məmmədalı oğlunun ocağında dünyaya göz açıb, sənətin ilk sirlərini də atasından öyrənib. Sonralar Aşıq Ələsgərdən və Təcnis Alıdan çox şey əxz edib. 1915-ci ildən özü sərbəst şəkildə elin toy-düyünlərində iştirak etməyə başlayıb.

Məclisdən-məclisə, toydan-toya yetkinləşib, sənətkar kimi tanındıqca el-obada sevilib. Lakin unutmayaq ki, Aşıq Şəmşirin bütövlükdə saz-söz aləmində daha da tanınması və məşhurlaşması, istedad və qabiliyyətinin üzə çıxması xalq şairi Səməd Vurğunun Kəlbəcəri ziyarəti ilə sıx bağlı idi. 1955-ci il kəlbəcərlilər və Aşıq Şəmşir üçün xüsusilə yaddaqalan olub. Belə ki, həmin ilin avqust ayında Səməd Vurğun Kəlbəcərə - "İstisu" sanatoriyasına müalicəyə gəlib. Ayın 5-də Boyaqlı Turşsuyunda şairlə aşığın görüşü təşkil edilib. El arasında sayılıb-seçilən aşığın şairlə görüşə dəvəti təsadüfi deyildi. Ömrünün son vaxtlarını yaşayan ölməz Səmədi həmin tarixi görüşdə bədahətən "Xoş gəldin" rədifli qoşması ilə salamlayan aşığın şirin avazından, sehrli səsindən sonra şair sanki ağrılarını, azar-bezarını unudub. "Kazbek" siqaretinin qutusu üzərinə "Aşıq Şəmşir, Dəlidağdan keçəndə..." misrası ilə başlayan "Məni" rədifli şeirini yazaraq o zaman rayonun prokuroru işləyən, el şairi Paşa Salahlıya verib deyir ki, bunu saxla, axşamkı görüşdə oxuyaram.




Həmin gün rayon mədəniyyət evində şairlə görüşün sonunda söz Aşıq Şəmşirə verilir. Bir neçə saat öncə bulaq başında şairin söylədiyi "Məni" qoşmasından ruhlanaraq "Səni" rədifli şeiri ilə səhnəyə çıxan aşıq Şəmşir "El havası" üstündə oxuyub:

*Şəmşirlə görüşün qaldı yadigar,*
*Unutmaz nə qədər canında can var.*
*Səndən dərs almağa diyarbədiyar,*
*Gəzirəm əlimdə şam-çıraq səni.*

Aşığın bu ülfəti Səməd Vurğunu elə vəcdə gətirib ki, səhnəyə qalxaraq onu bağrına basıb və sədəfli sazını öpüb. Məhz həmin məclisdə Səməd Vurğun aşığa dədəlik tituluna layiq olduğunu bildirib. Bundan sonra o, Dədə Şəmşir kimi tanınıb.

Yaxın tariximizin quruculuq dövrü kimi xatırlanan ötən əsrin 70-ci illərindəki inkişafı görərək vəsf edən Dədə Şəmşirin yaradıcılıq nümunələrindən olan "Zərli tac kamallı başa yaraşır" kitabı da məhz ümummilli lider Heydər Əliyevin ozamankı fəaliyyətinə el məhəbbətinin ifadəsidir:

*Möhürlə yazılıb xalqın qəlbinə,*
*Silinməz tarixdən adı Heydərin.*
*Qəhrəman ellərdən alıb dərsini,*
*Belə böyük var ustadı Heydərin.*

Aşıq-şairin fəhmlə bu günü o zamanlar necə dərk etməsi bir sıra tərənnüm şeirlərində də öz əksini tapıb:

*Azərbaycanımın igid oğluna*
*"Qızıl ulduz" qoşa-qoşa yaraşır.*
*Alqış kamalına, alqış ağlına,*
*Zərli tac kamallı başa yaraşır.*

"Torpağın dadı" adlı şeirində ustad qəhrəmanını ana Vətənlə qoşa vəsf edir:

*Ömrün uzun olsun, igid Heydərim,*
*Şöhrətin tarixin varağındadır.*
*Cənnətə dönübdü şoranlı çöllər,*
*Qüdrətin vətənin çırağındadır.*

Aşıq Ələsgərlə Ağdabanlı Qurbanın möhkəm dostluq əlaqələri olub, onların bir sıra deyişmələri bu günümüzə qədər gəlib çıxıb. Belə bir mühitdə doğulub böyüyən Aşıq Şəmşir, təbii ki, ona verilmiş ilahi istedadın və ustadlardan aldığı dərslərin sayəsində söz, sənət dünyasının korifeylərindən olmağa layiq idi. Dərs aldığı ustadların varisi və ləyaqətli davamçısı olub. Onun qoşmaları, gəraylı və müxəmməsləri, təcnisləri, müxtəlif bağlamaları öz məzmununa, bədii keyfiyyətinə görə son dərəcə müasir və təravətlidir. Ustad klassik aşıq poeziyası ilə müasir şeirimizi qovuşduraraq yeni formalı nümunələr yaradıb:

*Bir kəsə qalmadı dünyanın varı,*
*Hanı xan, xaqanlar, getdimi, getdi.*
*Atanlar, tutanlar, mənəm deyənlər,*
*Vuranlar, yıxanlar, getdimi, getdi.*

Aşıq Şəmşirin şeirlərində Azərbaycan ucalığı, poeziya zirvəsi var. Bu zirvədən yurdumuzun mənzərəsi çox gözəl və cazibəli görünür. Aşığın sinəsində vətəndaş ürəyi döyünürdü. Bütün varlığı ilə xalqına, dəlicəsinə sevdiyi Kəlbəcərinə bağlı idi. Ən böyük arzusu Yer üzündə sülhün, dincliyin, halallığın bərqərar olması idi. El aşığı bu fikirdə idi ki, harada doğulmasından asılı olmayaraq, Yer kürəsi bütün insanların anasıdır və onu hamı sevməlidir. Nifrət bəslədiyi xüsusiyyət isə yarımçıqlıq, nadanlıq və xəyanət idi. Dədə Şəmşir belələrinə üz tutaraq yazırdı: "Dad əlindən bədəməlin, qayğısını çəkməz elin".

Ağır ellərin bu mötəbər Dədəsi dəfələrlə zirvələrin ağ qarını öpüb, buz bulaqlı yaylaqlarında saz tutub, söz deyib. Dədə Şəmşirli meydanlar o qədər bol olub ki, maraqlı söhbəti, dadlı xatirələri bugünədək yaşamaqdadır.

O, 80 yaşında da səhnədə tufan qoparırdı. Sazın simlərindən qasırğa yağırdı. Allah, o nə səs idi?! O nə zəngulələr, nə yerişlər idi? Hələ də xəyalımızdan çəkilməyib. Bir bülbül avazı var idi onun nəfəsində. Adama elə gəlirdi ki, o səsin ahəngində Kür Arazla qovuşurdu. Ağdabanlı Qurbanın sənətinin davamçısı olan Dədə Şəmşir mərhum Allahverdi Qəmkeş, Əliş Quliyev və Qardaşxan Mehtiyev kimi 40-dan çox saz-söz sənətkarının yetişməsində, kamilləşməsində, püxtələşməsində çəkdiyi əmək danılmazdır.

Dədə Şəmşir yalnız aşıq deyil, eyni zamanda atası Ağdabanlı Qurban kimi, poetik və lirik duyğulu şair, ağız ədəbiyyatının bilicisi, savadlı, təhsilli, həm də dastanlar müəllifi idi. "Şəmşir və Sənubər", "Cəlal və Minayə", "Misir və Sənəm" kimi dastanları, "Polad" adlı nəzmlə yazılmış qəhrəmanlıq dram əsəri, "Əsli və Kərəm" dastanının səhnələşdirilmiş müəllifi də elə ustaddır!




Tutqun buludların tən ortasından Ayın gül camalı görünürdü. Düz ilqarlı aşıq sanki qocalığın əlindən təngə gələrək onun acığına meydanda arzularını dilə gətirirdi:

*Çağırsan cavanlıq yetişməz hova,*
*Yanar cismin, inan, sönməz alova.*
*Çıxmaq üçün Dəlidağa, Murova,*
*Söylə görüm, varmı səndə hal, aşıq?*

1980-ci ildə çap edilmiş şeirlər kitabına baxanda görürsən ki, o, dağlara saysız şəkildə təcnis, təxmis, qoşma, gəraylı həsr edib. Dağlardan yazdıqlarını özü "zərli şeirlər" adlandırardı. Ustad Kəlbəcər dağlarının saz və söz şimşəyi idi. Onun səsi dağlarda sehrli uğultuya dönürdü.

Ömrü boyu Kəlbəcərdən kənarda yaşaya bilməyən, o yerlərsiz nəfəs almayan Dədə Şəmşir təsadüfən qismətinə çıxan ayrılıqdan xiffətlənərək öz hisslərini belə ifadə edirdi:

*Söylə görüm, çoxmu buzluq,*
*Dağlar həmən yerindəmi?*
*Sarı nərgiz, tər bənövşə,*
*Çiçək, çəmən yerindəmi?*

Aşıq Şəmşirlə böyük şair Səməd Vurğunun deyişmələri də dillərdə bir əfsanəyə, dastana döndü. Vaxtilə Səməd Vurğun üzünü Dədə Şəmşirə tutub: "Kəklikli daşlardan xəbər al məni" demişdi. Şairin çağırışındakı mətləbi həssaslıqla duyan aşıq ömrünün sonuna kimi dağlardan ayrılmadı. Ona elə gəlirdi ki, Səməd Vurğunun vəsiyyətini yerinə yetirməsə, ellər də, dağlar da ondan incik düşər. Bəlkə elə buna görə ömrü boyu qibləgahı doğulduğu torpaq idi.

*Mənə sənsən ata, ay ana torpaq,*
*Üzüm dönməz, səndən, ay yana, torpaq.*
*Bir gün qucağına basarsan məni,*
*Qoyma cismim səndə a yana, torpaq.*

Dədə Şəmşir aşıq şeirinin müxtəlif poetik formalarında zəngin nümunələr yaradıb. Kəlbəcər ədəbi mühitini gözəl bilən, şifahi və yazılı ədəbiyyatımızın nadir bilicisi kimi öz fərdi yaradıcılıq məktəbini yaradan ustad ozanlarımızdan olub. Bu gün xalq tərəfindən ustad kimi tanınan aşıq Xalıqverdi Həmidoğlu, mərhum Allahverdi Qəmkeş, Əliş Quliyev və Qardaşxan Mehtiyev kimi 40-dan çox saz-söz sənətkarının yetişməsində, kamilləşməsində, püxtələşməsində çəkdiyi əmək danılmazdır.

Aşıq Şəmşirin qeyri-adi səsi və çalğısı saz-söz sərrafı olan Kəlbəcər ellərində yüksək dəyərləndirilir. Ustad sənətkarın orijinal ifaçılığı və şairliyi heç kəslə müqayisə edilmirdi. Nə yaxşı ki, fitrət sahibinin lent yazıları bu günümüzəcən gəlib çatıb. Onu da deyək ki, elmi və ədəbi ictimaiyyətdə tanınmış professorlardan M.Arif, H.Araslı, M.H.Təhmasib, M.Quluzadə, M.Vəkilov, S.Paşayev, T.Bünyadov, C.Abdullayev, dosentlərdən Y.Babayev, M.Allahmanov, İ.Ələsgərov, görkəmli şair-yazıçılarımızdan S.Vurğun, O.Sarıvəlli, N.Xəzri, M.Rahim, T.Bayram, M.Aslan, M.İsmayıl, N.Həsənzadə, Z.Yaqub, İ.Tapdıq, Z.Cabbarlı, F.Sadıq, A.Babayev, Ə.Qurbanov, A.Əlizadə, B.Vətənoğlu kimi qələm sahibləri ilə yanaşı, cild-cild romanlar, povestlər müəllifləri Ə.Vəliyev, İsa Muğanna, İ.Məlikzadə, Ə.Qasımov, C.Əlibəyli, S.Əhmədov kimi sənətkarlar ayrı-ayrı illərdə dövri mətbuatda Dədə Şəmşirin sənət dünyasından, şeirlərinin poetik vüsətindən, sanbalsiqlətindən söz açıblar.

Musiqişünas Əminə Eldarova ilk dəfə ustadın ifasında 75 aşıq havasını lentə köçürüb. Azərbaycan Radiosunun Qızıl Fondunda mühafizə olunan bəzi lent yazıları isə aşığın Əminə xanım tərəfindən 1958-ci ildə yazılan saz havalarıdır.

Dədə Şəmşir 1980-ci il fevralın 10-da 87 yaşında sevə-sevə vəsf etdiyi doğma Kəlbəcərinə, bütövlükdə isə bu dünyaya əlvida dedi. Maraqlıdır ki, o qədər pak qəlbə məxsus idi, onu öz vəsiyyətinə uyğun olaraq, Ağdabanla Çayqovuşan kəndlərinin arasında - meşə talasındakı uşaq qəbiristanlığında dəfn ediblər.

Ağdabanlı Qurbanın bədii yaradıcılıq nümunələrinin toplanaraq oxuculara çatdırılmasında folklor tədqiqatçısı, professor Sədnik Paşayevin xidmətləri böyük olub. Belə ki, Kəlbəcərdə zaman-zaman yaranan, lakin yazılı ədəbiyyata köçürülməyən folklor nümunələrinin toplanmasında əvəzsiz xidmətlər göstərmiş S.Paşayev 2000-ci ildə "Getmə" adlı şeirlər kitabı ilə bir daha təsdiqləyib ki, Ağdabanlı Qurbanın və Dədə Şəmşirin ədəbi irsi tədqiqata layiqdir.

Dədə Şəmşir taleyi üzünə gülən sənətkar olsa da, özündən sonra onun ədəbi irsi yağılar tərəfindən yandırılaraq məhv edilib, həm də bir neçə dəfə. Yaşayıb, yazıb-yaratdığı Ağdaban kəndi erməni vandalları tərəfindən odlara qalanıb. 1992-ci il aprelin 7-dən 8-nə keçən gecə ermənilər qəfil hücum edərək Ağdabanı ikinci Xocalıya çevirdilər. O qanlı faciə zamanı 32 nəfər ağdabanlı dinc sakin - qoca, qarı, uşaq həlak olub, iki nəfər evdə diri-diri yandırılıb, 17 nəfər isə girov aparılıb. Kənd bütünlüklə yerlə-yeksan olunub. Sübh tezdən köməyə gələn yerli özünümüdafiə batalyonunun 6 döyüşçüsü də yolda güllələbarana tutulub.

8 aprel 1992-ci ildə Ağdaban ermənilər tərəfindən yandırılaraq darmadağın edilib. Sonradan bərpa edilsə də, 26 mart 1993-cü il bu yurdun işğal tarixi kimi yaddaşlara yazılıb. Kəlbəcərin ilk şəhidliyi də məhz bu kənddən başlayıb. Ermənilər Ağdabanı təkcə strateji məkan olduğu üçün deyil, əslində, Kəlbəcər ədəbi mühitinin beşiyi kimi də çoxdan hədəfə almışdılar. Çünki bu kəndin yetirdiyi Ağdabanlı Qurban böyük sərkərdə Şah İsmayıl Xətainin silahdaşı Miskin Abdal ocağının nəsil davamçısı idi. Bu ocaq mənəviyyatımızın beşiyi kimi erməniləri olduqca ciddi narahat edirdi. Məhz ona görə də hələ 1990-cı il iyul ayının 11-də Ağdərənin Otaqqaya ərazisində Tərtər-Kəlbəcər marşrutu ilə gedən (150-yə yaxın maşından ibarət) karvanın qarşısını kəsərək, Dədə Şəmşirin qızı Çimnaz xanımı, milis mayoru, Zərdab rayon milis rəisinin müavini Şahlar Şükürovu (Azərbaycanın Milli Qəhrəmanı), Aslan Xıdırovu, "İstisu" sanatoriyasında müalicəyə gedən yüzlərlə dinc sakini (əksəriyyəti xəstə və qocalardan ibarət) terror nəticəsində qətlə yetirmişdilər. Bütün bunlar Dədə Şəmşir ocağının Kəlbəcərdə son illər yaşadıqlarının bir qismidir.

1957-ci ildə Aşıq Şəmşir Azərbaycan Yazıçılar İttifaqına üzv qəbul edilib. Həmin il ustad həm də "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülüb. Dədə Şəmşirin yaradıcı əməyinə yüksək qiymət ilk dəfə ulu öndər Heydər Əliyev tərəfindən verilib. Ustad 80 illiyi ilə əlaqədar 14 mart 1973-cü il tarixində "Şərəf nişanı" ordeni ilə təltif olunub.

Ustadın yubileylərinin dövlət başçısının sərəncamları ilə keçirilməsi, əlbəttə, Azərbaycan aşıq ədəbiyyatına verilən ən yüksək qiymətdir. Son dövrün ədəbi tədqiqatları isə göstərir ki, XX əsr Azərbaycan ədəbiyyatının tanınmış simalarından sayılan Dədə Şəmşirin yaradıcılığı Kəlbəcərdə dünyaya göz açmış şairlərinkindən fərqli olaraq, daha geniş şəkildə diqqət çəkmiş və onun ilk şeirlər kitabı Osman Sarıvəllinin redaktorluğu ilə 1959-cu ildə Azərbaycan Elmlər Akademiyası tərəfindən nəşr edilib. 1971-ci ildə ustad sənətkarın "Qoşmalar"ı, iki ildən sonra isə "Seçilmiş əsərləri" işıq üzü görüb. Özündən sonra zəngin ədəbi irs qoyub getmiş Dədə Şəmşirin yaradıcılığı öyrənilməkdə və bir-birindən maraqlı tədqiqat əsərləri yazılmaqdadır.

Aşıq Şəmşirin "Şeirlər" adlı ilk kitabı 1959-cu ildə "Akademiya" nəşriyyatı tərəfindən buraxılıb. Sonralar müəyyən fasilələrlə ustad sənətkarın "Qoşmalar", "Seçilmiş əsərləri", "Dağ havası", "Şeirlər", "Öyüdlər" və s. kitabları işıq üzü görüb. Həyat və yaradıcılığına həsr olunmuş "Aşıq ürəkli şair, şair ürəkli Aşıq Şəmşir" (Osman Sarıvəlli), "Saxla izimi, dünya" (Məmməd Aslan), "Dədə Şəmşir yaddaşlarda" (Qənbər Şəmşiroğlu), "Dədə ocağı" (Məhəmməd Nərimanoğlu), "Sən dağlardan ayrılmadın", "Sazımız ağlayır dağlar başında", "Arı çiçəyə gələr" (Cəmilə Çiçək) kitabları nəşr edilib.

"Aşıq Şəmşir Mədəniyyət Ocağı" İctimai Birliyinin sədrinin müavini Həbib Misirov deyir ki, 2010-cu ildən təsis olunan bu qeyri-hökumət təşkilatının Azərbaycan incəsənətinin təbliğindəki fəaliyyətinə görə UNESCO-da akkreditasiyasına dair qərar qəbul olunub və ictimai birliyə qurumda məsləhətçi status verilib: "Ustad Dədə Şəmşirin hər il bir qayda olaraq anım tədbirlərində birliyin fəaliyyətində yaxından iştirak edən, aşığın yaradıcılığına sənət töhfəsi verən aşıqlara, xüsusən gənc nəslin nümayəndələrinə "Aşıq Şəmşir" Mədəniyyət Ocağı tərəfindən fəxri diplomlar təqdim olunur. Anım tədbirində Dədə Şəmşirin həyat və yaradıcılığına həsr olunan film də ictimaiyyətə nümayiş etdirilir. Onu da deyək ki, birlik fəaliyyətə başladığı vaxtdan indiyə kimi mədəniyyətimizin təbliği istiqamətində 700-dən çox layihə həyata keçirib. Aşığın qorunub saxlanan, əldə olan əlyazmaları və öz səsi ilə ifa etdiyi 75 saz havasından ibarət audio-video disk buraxılıb və ictimaiyyətə təqdim olunub".

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

Novruz gəlir, yaz gəlir

# Əmin-amanlıq bayramı

Builki qış mülayim keçdi. Havaların şaxı sınıb. Elimizdə-obamızda baharın nəfəsi duyulur. Gün doğan kimi şəfəqləri gömgöy zəmilərə, meyvə bağlarına, yamyaşıl yamaclara düşür.



Dağlardan əsən xəfif meh çəməndəki otlara sığal çəkir. Qayalardan kəkliklərin, tarlalardan toraǧayların nəğməsi eşidilir. Çoban da üst-başına əl gəzdirib, sürüsünü otlağa çıxarır. Tütəyinin səsi ətrafa yayılıb ürəklərə rahatlıq gətirir.

Səhərçağı yollarda gediş-gəliş çoxalıb. Dağ kəndlərindən aşağı enən maşınlar Lerik şəhərinə yan alır. Burada asfalt küçələr, sıralanmış evlər, bağlı-bağatlı həyətlər, tərtəmiz meydanlar, fəvvarələr göz oxşayır. Ötən Novruz bayramlarından bəri şəhərdə xeyli quruculuq işləri görülüb, yeni məhəllələr salınıb.

Leriki şöhrətləndirən təkcə təbiəti, ab-havası deyil, uzunömürlü ağsaqqalları və ağbirçəkləri, ziyalıları, qurub yaradan sadə adamlarıdır. Neçə illər əvvəl bu şəhərə qonaq gələn xalq şairi Fikrət Qoca yazıb: "Allah da bəlkə elə, cənnəti uyduranda Lerikdən danışırmış".

Lerik şəhərində bir əsrin dizini qatlayan Xanımcan Yusubova, Xanım Talışlı, Bacı Əliyeva, Racı Cəlil qızı kimi ipək xasiyyətli el anaları ömür sürürlər, xoşbəxt qocalıqdan razılıq edirlər. Novruz bayramı ərəfəsində Uzunömürlülər muzeyinin əməkdaşları ilə 104 yaşlı Racı nənənin görüşünə getdik. Evin giriş qapısında bizi nəvəsi Əflatun qarşılayıb içəri apardı. Dəhliz boyu səmənilər, gül dibçəkləri düzülmüşdü. Xonçalarda boyanmış yumurtalar, şəkərbura, paxlava, alyanaq almalar, qovurğa, çərəzlər, rəngbərəng şamlar göz oxşayırdı.

Xalı döşənmiş qonaq otağına keçdik. Ağbirçək ayağa durub görüşdü, yer göstərdi. Evin gəlini Rəhilə xanım süfrə açıb çay gətirdi. Racı nənə gəlişimizdən sevindiyini söylədi:

- Qonaq evin yaraşığıdır. Düşdüyü yerin şənliyi, şuxluğu birə-beş artır, ağrı-acı yaddan çıxır. Ev yiyəsi gözünün yağını ona yedirtməyə çalışır, olanından qoyur süfrəyə. Elimizin gözəl adəti var, hər şeyin yaxşısını qonağa saxlar.

Söz sözü çəkdi, söhbət Novruz bayramından düşdü. Ağbirçək arxada qalan illəri yada saldı. Dedi ki, bu bayram özü ilə şadyanalıq gətirir. Oğlanlar at çapardılar, qurşaq tutub güləşərdilər. Sonra meydan oyunları başlanardı. "Çılınqağac", "Çilədi", "Qayışgötürdü", "Ənzəli" oyunları bir-birini əvəz eləyirdi. Qızlar dəstə bağlayıb özlərini ərik ağaclarının altına verərdilər. Hulumcuq asıb yellənərdilər.

Elə ki toran düşdü, çal-çağır birə-beş artardı. Tonqal qalanardı, əl-ələ verib tonqalın ətrafında oynaya-oynaya oxuyardıq:

*Ağ alma, qızıl alma,*
*Nimçəyə düzül, alma.*
*Bilsəydim yar göndərib,*
*Saxlardım yüz il, alma.*

Novruzun birinci günü səhərin gözü açılar-açılmaz geyinib-keçinərdik, qonşu qızlara qoşulub üz qoyardıq bulaqlara. Səhəngləri, bardaqları suyla doldurardıq. Bərəkət bol olsun deyə, qabların içinə xırda bir daş da atardıq. Ovuclarımızı suyla doldurub bir-birimizə səpərdik. Evə dönüb yatanların üzünə su çiləyib oyadardıq. Künc-bucağa da səpərdik ki, aydınlıq olsun, azar-bezar ocaqdan uzaqlaşsın.

Racı nənə söhbətinə azca ara verdi. Stəkandakı çaydan 2-3 qurtum içdi, yaddaşını yoxlayıb sözünə davam etdi:

- On beş-on altı yaşım olardı. Axırıncı çərşənbə axşamı anam məni qulaq falına göndərdi. Qonşumuzun qapısında dayanıb qulaq asdım. Xoş sözlər eşidib şad qayıtdım. Ertəsi gün eşitdiklərimi tay-tuşum olan qızlara danışdım. Qəhqəhə çəkib gülüşdülər. "Səndə gözü olan var, bu gün-sabah elçilərin gələr" dedilər. Elə də oldu. İki aydan sonra məni Ağaverdiyə nişanladılar.

Evlənməyimizdən 9 il keçirdi. Müharibə başlandı, ərimi çağırıb yola saldılar. Ailənin ağırlığı dörd il üstümə düşdü. Kişi davadan qayıdıb gəldi. Biz 7 övlad böyütdük. Oğlan evləndirdik, qız köçürtdük. Otuz beş il olar rəhmətə gedib.

Söhbətə ağbirçəyin oğlu Əjdər də qoşuldu:

- Anam zərbəçi kolxozçu olub. Yayda taxıl biçib, payızda kartof yığıb. Alın təri ilə bizi böyüdüb, ev-eşik sahibi olmuşuq. Əlindən zər tökülərdi. Xalça, kilim, corab toxuyardı. Son illər gözlərinin nuru azalıb. Evdə bekar durmağa səbri çatmır. Gücü çatan işdən yapışır, həyət-bacada gəzib dolanır.

Ağbirçək Novruz etiqadlarından da söhbət saldı. Dedi ki, axır çərşənbədə gözə gələn adamın falına baxmaq üçün xəmir yoğururlar. Yeddi dənə qoz boyda kündə tutub peçin üstünə atırlar. Kündələr göz-göz olursa, həmin adam gözə gəlib, yox əgər adi qaydada qızarırsa, göz dəyməyib. Qorxunu götürmək üçün bir ovuc un götürürlər. Qorxan adamı divarın yanında saxlayıb unu divara atırlar. Divarda şəkil alınır. Deməli, adam divardakı şəkildən qorxub. Axır çərşənbədə qorxanların başından su tökürlər ki, qorxunu yuyub aparsın.

Novruzda yasaq olunmuş bəzi adətləri ilk dəfə el anasından eşitdik: Axırıncı çərşənbədə axşam şamı yarımçıq söndürməzlər. Qonşuya ağartı, ələk, borc un verməzlər. Kimə borcun, verəcəyin varsa, ödəməlisən. Yoxsa bu borc daha da çoxalar. Bayram gecəsi ağlamaq olmaz. Çünki göydəki mələyin xoşuna gələr. O, istər ağlayan həmişə ağlasın.

Yerli təşkilatlar uzunömürlü ahıllara xüsusi qayğı göstərirlər. Racı nənə də bu qayğıdan kənarda qalmayıb. Dövlətdən təqaüd alır, övladları ilə hər cür şəraiti olan evdə yaşayır. Rayon icra hakimiyyətinin nümayəndələri ilin əvvəlindən ona üç dəfə baş çəkib bayram sovqatı aparıblar. Mərkəzi xəstəxananın həkimləri səhhəti ilə maraqlanırlar. 34 nəvənin, 50 nəticənin, 25 kötükcənin nənəsidir.

Racı nənə ilə görüşüb ayrılanda arzularını soruşduq. Əllərini yuxarı qaldırdı: "Bizi yaradandan həmişə əmin-amanlıq istəmişəm. Bu bayramda da birinci arzumdur. Gün o gün olsun torpaqlarımızın azad edilməsi xəbərini gətirəsiz. Ömrümün yarısı, xoşbəxt günlərim hələ qabaqdadır", - dedi.

***Həmzə VƏLİMƏMMƏDOV,***
***əməkdar jurnalist***

# Pirallahıda "İki nəslin görüşü" adlı tədbir keçirilib



Mart ayının 14-də, Novruz bayramı ərəfəsində, Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının Gənclər Birliyi rayon Ağsaqqallar Şurası ilə birgə, qəsəbədə yerləşən 168 saylı tam orta məktəbdə "İki nəslin görüşü" adlı tədbir təşkil edib. Görüşdə Pirallahı Rayon İcra Hakimiyyəti başçısı Aparatının və YAP Pirallahı rayon təşkilatının əməkdaşları, YAP Pirallahı rayon təşkilatı Gənclər Birliyinin sədri Mehman Həşimli, Pirallahı rayon Ağsaqqallar Şurasının sədri Fazil Məhəmmədov, "Dövlətqaçqınkom"un Pirallahı rayonu üzrə sektor müdiri İlqar Məmmədli, rayon fəalları, əmək və müharibə veteranları, orta təhsil müəssisələrinin yuxarı sinif şagirdləri, gənclər təşkilatlarının fəal üzvləri iştirak ediblər.

Görüşü giriş sözü ilə açan İ.Məmmədli tədbir iştirakçılarını "Azərbaycan gəncliyi" adlı videoçarxa baxmağa dəvət edib. Maraqla izlənən videoçarxdan sonra görüşdə çıxış edən Pirallahı rayon Ağsaqqallar Şurasının sədri Fazil Məhəmmədov qeyd edib ki, Azərbaycanda həm veteranlara, həm də gənclərə daim diqqət və qayğı ilə yanaşılır, onların sosial məsələlərinin və problemlərinin həllinə çalışılır. Veteranların sosial təminatı yüksək səviyyədə həll olunur, onların yubileyləri qeyd edilir, ağsaqqallarla gənc nəslin yaddaqalan görüşləri keçirilir.

YAP Pirallahı rayon təşkilatı Gənclər Birliyinin sədri M.Həşimli vurğulayıb ki, bu gün ölkəmizin əldə etdiyi uğurlarda əhəmiyyətli rolu olan YAP nəinki Azərbaycanda, eyni zamanda, regionda nüfuzlu siyasi qüvvəyə çevrilib. Xalqın iradəsini ifadə edən, iştirak etdiyi bütün seçkilərdə parlaq qələbələr qazanan, ölkənin avanqard partiyasının Gənclər Birliyində təmsil olunmaq çox böyük şərəf və məsuliyyətdir. Qürurla deyə bilərik ki, əsl ümumxalq partiyası olan YAP-ın gəncləri ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycanın qurulması və inkişafı naminə müəyyən etdiyi proqramın həyata keçirilməsində hər zaman fəal olmuşlar. YAP-ın sıralarına yeni qoşulanların mütləq əksəriyyətinin məhz gənclərdən ibarət olduğunu söyləyən M.Həşimli, partiyanın 700 mindən artıq üzvünün 40 faizini gənclərin təşkil etdiyini bildirib.

Daha sonra çıxış edən Pirallahı RİH-in şöbə müdirinin müavini Vüsal Babayev, YAP Pirallahı rayon təşkilatı Gənclər Birliyinin sədr müavini Elturan Həşimov, Pirallahı rayon Ağsaqqallar Şurasının üzvü Yaqub Hüseynov, "Dövlətqaçqınkom"un Pirallahı rayonu üzrə sektor müdiri İlqar Məmmədli iki nəslin belə görüşlərinin mühüm əhəmiyyətini vurğulayıblar, veteranların zəngin təcrübəsindən yararlanmağın vacibliyini qeyd ediblər. Natiqlər eyni zamanda, gənclərin Azərbaycanın ictimai-siyasi həyatındakı rolundan danışıblar. Bildirilib ki, gənclərin böyük həyat təcrübəsinə malik veteranlardan öyrənmək, veteranların isə gənc nəslin nümayəndələrinə öz tövsiyələrini vermək baxımından belə görüşlərin əhəmiyyəti böyükdür. Qeyd edilib ki, gənclərin ölkənin inkişafının davamlılığında, dövlətimizin qarşısında duran problemlərin həllində üzərlərinə böyük məsuliyyət düşür. Gənclər ölkənin inkişafı naminə öz potensiallarını səfərbər etməli, siyasi cəhətdən daha da yetkinləşməli, Azərbaycanın etibarlı gələcəyinin qurulmasında yaxından iştirak etməlidirlər. Onlar daxili sabitliyə, xalqın birliyinə qarşı yönəlmiş yad təsirlərdən özlərini qorumağı bacarmalı, belə hallarla inamla mübarizə aparmalıdırlar. Natiqlər gənclərin onlara göstərilən etimadı doğruldacaqlarına, Vətənimizə layiqli vətəndaş olacaqlarına əminliklərini ifadə ediblər.

Sonda ağsaqqallar görüşdə iştirak edən gənclərin çoxsaylı suallarını cavablandırıblar.

***"Azərbaycan"***

## "Azərişıq"ASC 2018-ci ildə Yeni Yaşma qəsəbəsində yerləşən 20/110 kV-luq KES №1 -110/35/6 kV-luq yarımstansiyaları arasında 1 dövrəli 110 kV hava xəttinin tikintisi (110 kV-luq 4 və 5-ci Yaşma hava xəttindən "Sitalçay" budaqlanması daxil) və 110 kV-luq 3-cü-4-cü Xırdalan hava xəttində təmir-bərpa işlərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

**Tender 2 (iki) LOT üzrə keçirilir:**

**LOT-1**

Yeni Yaşma qəsəbəsində yerləşən 20/110 kV-luq KES №1 -110/35/6 kV-luq yarımstansiyaları arasında 1 dövrəli 110 kV-luq hava xəttinin tikintisi (110 kV-luq 4 və 5-ci Yaşma hava xəttindən "Sitalçay" budaqlanması daxil) üzrə işlərin satın alınması - **400 manat**

**LOT-2**

110 kV-luq 3-cü - 4-cü Xırdalan hava xəttində təmir-bərpa işlərinin satın alınması - **400 manat**

**Azərişıq ASC**
**VÖEN: 9900069391**
**Hesab No: AZ83AIIB33020029441802068118**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab No: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesabına köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ələsgər Qayıbov küç. 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Asəd Ağayev
(telefon: 440-39-93 daxili (22-83))

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 25 aprel 2018-ci il saat 16:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 03 may 2018-ci il saat 16-00-a qədər Bakı şəhəri, Ələsgər Qayıbov küç. 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 04 may 2018-ci il tarixində saat 16-00-da Bakı şəhəri, Ələsgər Qayıbov küç. 8 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştitrak edə bilərlər.

***Tender komissiyası***

## Azercell abunəçilərinin nəzərinə

16 mart 2018-ci il tarixdən etibarən, Fakturasız (SimSim) xətt sisteminə aid nömrələrin abunəçiləri qeyd edilən ölkələrə səfər edərkən, rominqdə mobil İnternet xidmətindən də faydalana biləcəklər.

| Ölkə | Mobil İnternet xidmətinin hər bir MB görə xidmət haqqı |
|---|---|
| İRAN, İSRAİL, ÇİN, MAKAO | 3.50 |

**Qeydlər:**

- Xidmət avtomatik olaraq aktivləşir.
- Qiymətlər AZN ilə ƏDV daxil qeyd edilmişdir.
- Mobil-internet xidmətinin hesablanma intervalı 30 kb təşkil edir.
- Rominqdə mobil internet xidmətinin aktivləşdirilməsi üçün nömrənin cari balans hesabında 1.00 AZN minimal məbləğ olmalıdır.
- Ümumi xidmət haqqı məbləğinin vergüldən sonrakı qəpik hissəsi qanunvericilikdə müəyyən edilən qaydada iki işarəyədək yuvarlaqlaşdırılır.
- Xarici valyuta üzrə məzənnənin dəyişilməsi xidmət haqlarının AZN ilə müəyyən edilən məbləğlərinin də dəyişilməsinə əsas ola bilər.

## Bildiriş

Azərbaycan Respublikasının Təhsil Nazirliyi
Azərbaycan Dövlət Pedaqoji Universitetinin 09 fevral 2018-ci il tarixdə "Azərbaycan" qəzetində dərc olunmuş açıq tenderin 2-ci lot üzrə elan etdiyi inventarın satın alınmasına dair

**Lot -2. İnventarın alınması üçün açıq tender elanı tender təklifi vermiş iddiaçıların sayında yetərsay təmin olunmadığı üçün ləğv edilir.**

Əlavə məlumat almaq üçün aşağıdakı ünvana müraciət etmək olar:

**Ünvan: Bakı şəhəri, Üzeyir Hacıbəyli 68**
**e-mail: umid_mehdiyev91@mail.ru**
**Tel: (+994 12) 493 23 84**

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

## "Azercell" Qərbi Kaspi Universitetində tələbələrə dəstək oldu

"Azercell Telekom" MMC ölkəmizdə keçirilən karyera sərgilərində iştirakını davam etdirir.



Şirkətin əməkdaşları bu dəfə martın 10-da Qərbi Kaspi Universitetində baş tutan karyera sərgisində tələbə və məzunlara dəstək olublar. 50-dən çox nüfuzlu şirkətin iştirak etdiyi tədbirdə "Azercell" öz kreativ stendi ilə seçilib. Şirkətin İnsan Qaynaqları Departamentinin nümayəndələri "Azercell"ə işə qəbul olmaq istəyən məzunlar üçün informasiya sessiyaları təşkil edib və şirkətdə mövcud olan vakansiyalar barədə sərgi iştirakçılarını məlumatlandırıblar. İşə qəbul şöbəsinin əməkdaşları "Azercell"ə işə qəbul və şirkətin elan etdiyi Tələbə Təqaüdü və Təcrübə proqramları haqqında məlumat veriblər, eyni zamanda, məzunları maraqlandıran sualları cavablandırıblar.

Tələbələr mövcud əmək bazarında onların ixtisaslarına olan tələbat barədə məlumat əldə etmək, işəgötürənlərlə ilkin əlaqələr qurmaq, işəgötürənlər isə öz növbələrində potensial kadrların seçimini aparmaq imkanı qazanıblar.

Qeyd edək ki, sərgi çərçivəsində gənclər üçün "Karyera uğrunda bədən dilinin rolu" mövzusunda təlim də təşkil edilib. Tədbirin keçirilməsində məqsəd - öz bacarıq və biliklərinə uyğun iş axtaran gənclərə məsləhətlər vermək, onlara gələcək karyeralarını qurmaqda yardım etməkdir.

Məlumat üçün bildirək ki, "Azercell Telekom" daim istedadlı gənclərə dəstək olur. Şirkət ötən il ITECA və Təhsil Nazirliyi tərəfindən təşkil olunan 12 Beynəlxalq Karyera Sərgisində iştirak edib.

***"Azərbaycan"***

## Yaponiyada ölkə tarixində ən böyük dəfinə tapılıb



Yaponiyanın Saytama prefekturasında böyük pul xəzinəsi aşkar olunub. Xəzinə Kumaqaya şəhər Mədəni Dəyərlər Muzeyinə təhvil verilib.

Muzeyin bu barədə yaydığı məlumatda deyilir ki, bu, Yaponiyada gil qabda ən böyük pul tapıntısıdır. Xəzinə sikkələrin sayına görə də ən çoxsaylı tapıntıdır.

Dəfinə Hasuda şəhərində orta əsrlərə (XV-XVI əsrlər) aid ərazidə qazıntılar zamanı aşkar edilib. Demək olar ki, heç bir zərər dəyməyən 70 santimetr hündürlükdə gil qabda 260 min ədəd sikkə tapılıb. Dəfinə basdırılarkən buradakı sikkələr ortalarındakı deşiklərdən keçirilən ip vasitəsilə bir-birinə bağlanıb.

Arxeoloqların rəyinə görə, dəfinə şyoqunlar arasında davam edən müharibələr dövründə var-dövləti qorumaq məqsədilə basdırılıb.

## Məşhur fizik Stiven Hokinq 76 yaşında vəfat edib




Məşhur britaniyalı fizik Stiven Hokinq Kembricdəki evində vəfat edib.

AZƏRTAC xəbər verir ki, "The Guardian" nəşrinin yaydığı məlumata görə, alimin övladları Robert, Timoti və Lyusi atalarının elmi irsinin uzun illər yaşayacağını, onun böyük alim və qeyri-adi insan olduğunu söyləyiblər.

Stiven Hokinq 1942-ci ildə Oksfordda anadan olub. 1963-cü ildə ona amiotrofik skleroz diaqnozu qoyulub. Bundan 22 il sonra sətəlcəm olmuş alim daha sonra traxeostomiya keçirib və nəticədə danışmaq qabiliyyətini itirərək nitq sintezatorundan istifadə edib.

Məşhur fizik "Qara dəliklər və yeni kainatlar", "Dünya iki kəlmə ilə", "Zamanın ən qısa tarixi" və digər kitabların müəllifidir.

## Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün mənzillərin satın alınması ilə əlaqədar Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

### *açıq tender elan edir*

**Tender 1 LOT üzrə keçirilir :**

**LOT 1 Bakı şəhəri üzrə mənzil növbəsində olan Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün mənzillərin satın alınması:**

- 12 ədəd 1 otaqlı mənzil;
- 84 ədəd 2 otaqlı mənzil;
- 39 ədəd 3 otaqlı mənzil.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi 85 (Əlaqələndirici şəxs Tender komissiyası (012) 596-44-09) ünvanından ala bilərlər.

**İştirak haqqı : 2000 (iki min manat) manat**

**Satın alan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank : Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**MÜXBİR HESABI: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT BIK CTREAZ22**
**H/HESABI: AZ80CTRE00000000000002138501**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu-7**

**İstirak haqqı heç bir halda qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. **Tenderdə iştirak etmək üçün yazılı müraciət;**
2. **Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;**
3. **Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);**
4. **Tender təklifi dəyərinin 2% -i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır);**
5. **Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;**
6. **İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;**
7. **İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;**
8. **İddiaçının tam adı hüquqi statusu, nizamnaməsi qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;**
9. **İddiaçılar müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;**
10. **Digər sənədlər.**

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **25 aprel 2018-ci il saat 17:00-a qədər,** tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **4 may 2018-ci il saat 17.00-a qədər Bakı şəhəri, Salatın Əsgərova küçəsi 85** ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **07 may 2018-ci il saat 15.00-da Bakı şəhəri, Salatın Əsgərova küçəsi 85** ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Bildiriş

06 mart 2018-ci ildə dərc olunmuş Göyçay Rayon İcra Hakimiyyətinin LOT-1 Göyçay şəhərində asfalt-beton işlərinin görülməsi, LOT-2 Göyçay şəhərində abadlıq işlərinin görülməsi işlərinin satın alınması üçün keçiriləcək açıq tender zərflərinin açılış tarixi 15 mart 2018-ci il tarixdən 27 mart 2018-ci il tarixə keçirilmişdir.

***Tender komissiyası***

## Bildiriş

"Təmiz Şəhər" ASC tərəfindən 7 mart 2018-ci il tarixində "Balaxanı şəhər tullantılarının zərərsizləşdirilməsi poliqonunda yaşıllaşdırma işlərinin aparılması və Balaxanı bərk məişət tullantılarının çeşidlənməsi zavodunun ərazisində və qarşısında, həmçinin Balaxanı şəhər tullantılarının zərərsizləşdirilməsi poliqonunun qarşısındakı ərazi daxil olmaqla ümumi sahəsi 30.000 m² təşkil edən sahədə əkilmiş bitkilərə qulluq işlərinin satın alınması məqsədi ilə keçirdiyi açıq tenderdə "JSS" Məhdud Məsuliyyətli Cəmiyyəti qalib gəlmişdir.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Ombudsman Elmira Süleymanova və aparatın əməkdaşları iş yoldaşları Emil Şəmmədliyə və ailəsinə əzizləri

**BADİSƏBA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Şəhəri Sabunçu Rayon Məhkəməsinin sədri və məhkəmənin kollektivi Abşeron Rayon Məhkəməsinin sədri Elçin Kazımova atası

**MƏMMƏD KAZIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Dövlət Universitetinin Fəlsəfə kafedrasının əməkdaşları Sosioloji tədqiqatlar laboratoriyasının elmi işçisi Mətanət Abbasovaya atası

**MƏMMƏD ABBASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bakı Şəhəri Sabunçu Rayon Məhkəməsinin sədri və məhkəmənin kollektivi Nəsimi Rayon Məhkəməsinin sədri İlham Cəfərova atası

**MƏMMƏD CƏFƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclis Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Nizami Səfərov və şöbənin əməkdaşları Eldar Əsgərov, Elmir Vəliyev, Ziya Səmədov, Tamerlan Şeyxzamanov, Ramin Cəlilov, Lalə Baloğlanova, Elnur Nuriyev, Kamalə Paşayeva, Tural Tağıyev, Elçin İsmayıl və Mətanət Qənbərova iş yoldaşları Səyyad Kərimova əzizi

**YARADANQULU KƏRİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Xalqla əlaqə şöbəsi - 539-84-41,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoinformasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan " qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan " nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8916
Sifariş 745